AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 OKTYABR 2018-ci il CÜMƏ № 234 (6267) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Nazirlər Kabineti Sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin zəngin tarixə malik olduğunu bildirdi və bu gün ikitərəfli münasibətlərimizin bütün sahələri əhatə edərək uğurla inkişaf etdiyini dedi. Ölkələrimizin ikitərəfli və çoxtərəfli formatda fəal əməkdaşlıq həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev son illər birgə səylər nəticəsində əlaqələrin yeni səviyyəyə yüksəldiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında siyasi sahədə fəal qarşılıqlı fəaliyyətin mövcud olduğunu dedi, ölkələrimizin digər istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika, mədəniyyət sahələrində də əlaqələrinin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bütün bunlar bizim uzun əsrlik qardaşlıq əlaqələrimizə əsaslanır və biz münasibətlərimizin gələcəyinə nikbinliklə baxırıq. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan və eləcə də xalqlarımız arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirərək Rəşid Meredovun səfərinin qardaşlıq münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı. Xarici işlər naziri Rəşid Meredov bildirdi ki, Türkmənistan dövlətinin başçısı Prezident İlham Əliyevi Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etmək barədə tapşırıq verib və o, Qurbanqulu Berdiməhəmmədovun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını və ən səmimi arzularını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında mövcud olan dostluq əlaqələri ölkələrimizin münasibətlərinin inkişafında mühüm amildir.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Senatı sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsindən və bütövlükdə siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi. “İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır”, - deyən dövlətimizin başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif layihələr icra etdiyini və onlardan birinin bu il İtaliya və Azərbaycan prezidentlərinin iştirakı ilə ölkəmizdə açıldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin energetika sahəsində əməkdaşlıq etdiyini, mədəniyyət sahəsində əlaqələrimizin gözəl nəticələr verdiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin hərtərəfli inkişafı üçün parlamentlərarası əlaqələrin böyük rol oynadığını vurğulayaraq bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində ölkələrimiz tərəfindən qəbul edilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin rolunu qeyd etdi. Dövlətimizin başçısı İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin strateji tərəfdaşlıq əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlığını bildirən İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati dedi: “Biz bilirik ki, Azərbaycan həm ənənə, həm də mədəniyyət baxımından çox zəngin ölkədir. Təbii ki, mənim səfərim iki ölkə arasında olan dostluq əlaqələrinin bir daha təsdiqidir”.

İkitərəfli münasibətlərimizin inkişafında ölkələrimiz arasında həyata keçirilən yüksək səviyyəli səfərlərin önəminə toxunan İtaliya Senatının sədri öz səfərinin də əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz və xalqlarımız arasında bir çox oxşarlığın olduğunu bildirən italiyalı qonaq dedi: “Azərbaycanda müxtəlif millətlərin dinc birgə yaşaması onu göstərir ki, İtaliya ilə Azərbaycan bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirə bilərlər”.

Görüşdə sənaye, enerji, neft-kimya, mədəniyyət, infrastruktur, kənd təsərrüfatı, ekologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

## “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 231; 2000, N 3 (I kitab), maddə 159; 2008, N 7, maddə 611, N 8, maddə 719, N 10, maddə 896; 2009, N 2, maddə 71, N 12, maddələr 977, 987; 2011, N 7, maddə 633; 2012, N 6, maddə 545; 2014, N 7, maddə 791, N 11, maddə 1408, N 12, maddə 1570; 2015, N 1, maddə 20; 2016, N 6, maddə 1050) 2-ci hissəsinin on dördüncü abzasına “səlahiyyətlərini” sözündən sonra “dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərə münasibətdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilərə münasibətdə isə” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 oktyabr 2018-ci il.**

## “Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1102-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 6, maddə 494; 2014, N 9, maddə 1027; 2017, N 8, maddə 1521, N 12 (I kitab), maddə 2304) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adına və 1-ci hissəsinə “fövqəladə” sözündən sonra “və ya hərbi” sözləri əlavə edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş “Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı” üzrə:

*2.1.* adına “fövqəladə” sözündən sonra “və ya hərbi” sözləri əlavə edilsin;

*2.2.* 4-cü hissənin:

2.2.1. “Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı” sütununa “Azərbaycan Respublikasının” sözlərindən əvvəl “Fövqəladə hallarda və fövqəladə vəziyyət şəraitində” sözləri, “komendantı” sözündən sonra “, hərbi vəziyyət şəraitində isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti” sözləri əlavə edilsin;

2.2.2. “Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü” sütununa “fövqəladə” sözündən sonra “və ya hərbi” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 oktyabr 2018-ci il.**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliya Senatının sədri ilə görüşüb





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüş Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan Azərbaycanın "Milan Ekspo 2015" Ümumdünya sərgisindəki milli pavilyonunda keçirilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellatini Bakıda görməkdən şad olduğunu bildirdi. Mehriban Əliyeva qonağın İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə səfər etdiyini bildirərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən Birinci vitse-prezident əlaqələrimizin bir çox sahələri əhatə etdiyini vurğuladı.

"Əminəm ki, Bakıya səfəriniz çərçivəsində keçirəcəyiniz görüşlər gələcəkdə ölkələrimiz arasındakı potensialdan daha səmərəli istifadə etməyə imkan yaradacaq", - deyən Mehriban Əliyeva Maria Elisabetta Alberti Kasellatinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu vurğuladı.



Qonaqpərvərliyə görə təşəkkürünü bildirən İtaliya Senatının sədri bu səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə şərait yaradacağını söylədi. İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə gəldiyini bir daha qeyd edən qonaq müxtəlif sahələrdə qurulan əlaqələrdən məmnunluğunu ifadə etdi. Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycana səfərinin xüsusilə siyasi, sosial və mədəni sahələrdə əlaqələrin inkişafına kömək edəcəyini diqqətə çatdırdı. "Sizin İtaliyaya marağınız və sevginiz bizi qürurlandırır", - deyən qonaq Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirdi.

Görüş çay süfrəsi arxasında davam etdirildi. Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati "Milan Ekspo 2015" Ümumdünya sərgisində nümayiş etdirilən milli pavilyonumuza baxdılar.

"Azərbaycan: biomüxtəlifliyin xəzinəsi" adlandırılan dördmərtəbəli milli pavilyonda ölkəmizin mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb. Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə "Milan Ekspo 2015" Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialının və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən "Milan Ekspo" sərgisində pavilyonumuzda 3 milyon 250 mindən çox izləyici olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz "Milan Ekspo" sərgisinin incisi adlandırılıb. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu "Milan Ekspo 2015"in Təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunub. Azərbaycanın milli pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirir. Milli pavilyonla tanışlıqdan məmnunluğunu bildirən İtaliya Senatının sədri onun şəhərimizə xüsusi gözəllik verdiyini vurğuladı.

**AZƏRTAC**

# Professor Fəridə Səfiyevanın "Bir ömrün iziylə" kitabının təqdimatı olub

**Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Fəridə Səfiyevanın "Bir ömrün iziylə" kitabının təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Kitab Azərbaycan sovet fəlsəfə tarixinin banisi, Azərbaycan SSR Elmlər Akademiyasının ilk vitse-prezidentlərindən biri akademik Heydər Hüseynovun həyat və yaradıcılığından bəhs edir.

Bakı Dövlət Universitetinin sosiologiya kafedrasının müdiri, professor, fəlsəfə elmləri doktoru, kitabın elmi redaktoru İzzət Rüstəmov, filologiya üzrə fəlsəfə doktoru, "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva və digər çıxışçılar nadir arxiv sənədləri, akademikin həmkarlarının, tələbələrinin, ailə üzvlərinin xatirələri əsasında yazılan kitabda bu günə qədər ictimaiyyətə məlum olmayan bir çox məqamlara aydınlıq gətirildiyini qeyd ediblər.



Bildirilib ki, 1935-1950-ci illərdə Azərbaycan elminin inkişafında mühüm xidmətləri olan alimin həyatını faciəli sonluğa gətirib çıxaran hadisələr və səbəblər nəşrdə ilk dəfə açıqlanır.

Kitabda, həmçinin Heydər Hüseynovun biblioqrafiyası, şəxsi arxivində olan sənədlərin siyahısı, onların fotoşəkli, ailə fotoalbomu yer alıb.

**AZƏRTAC**



# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Moskvada "Azərbaycanın payız sovqatları" adlı şəhərcik açılıb

**Heydər Əliyev Fondu, Azərbaycanın Rusiyadakı səfirliyi və Moskva hökumətinin təşkilatçılığı, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi ilə oktyabrın 17-dən 21-dək Moskvanın Tver meydanında "Azərbaycanın payız sovqatları" adlı şəhərcik fəaliyyət göstərəcək.**

AZƏRTAC xəbər verir ki, oktyabrın 18-də şəhərciyin təntənəli açılış mərasimində Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Moskva hökumətinin naziri, ticarət və xidmətlər departamentinin rəhbəri Aleksey Nemeryuk, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər iştirak ediblər.

Moskva hökumətinin naziri, ticarət və xidmətlər departamentinin rəhbəri Aleksey Nemeryuk açılış mərasimində çıxış edərək bildirib ki, burada Azərbaycanda istehsal olunan ən yaxşı məhsullar təqdim edilir. O deyib: "Bu gün ilk dəfə Moskvada bu formatda Azərbaycan günləri keçirilir. Azərbaycanın ən yaxşı istehsalçıları Moskvada öz məhsullarını nümayiş etdirirlər. Biz bu gün Tver meydanına gələn hər kəsi görməkdən məmnunluq duyuruq. Burada hər şey gözəl təşkil olunub. Şəhərcikdə Azərbaycan məhsulları nümayiş etdirilir, ziyarətçilər ustad dərslərində iştirak edə biləcəklər. Bir neçə gün ərzində burada maraqlı tədbirlər keçiriləcək. Ümid edirik ki, belə tədbirlər mütəmadi təşkil olunacaq. Moskvaya xoş gəlmisiniz!".



Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Azərbaycan məhsullarının nümayişi üçün şərait yaradıldığına görə Moskva hökumətinə, Rusiya paytaxtının meri Sergey Sobyaninə təşəkkürünü bildirib. O deyib: "Azərbaycan ilə Rusiya arasında mehriban qonşuluq, strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Biz şadıq ki, bu münasibətlərdə Rusiya paytaxtının xüsusi yeri var. Moskva meri Sergey Sobyaninin Bakıya səfəri zamanı olduqca məhsuldar danışıqlar aparılıb".

Səfir sərginin təşkilinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib. "Bu gün təşkil olunan sərgi Moskva hökuməti ilə Azərbaycan hökuməti arasında əməkdaşlığın təzahürüdür. Mən şəhərciyin gözəl təşkilinə görə Heydər Əliyev Fonduna, Fondun prezidenti Mehriban Əliyevaya təşəkkürümü bildirmək istəyirəm. Heydər Əliyev Fondu bütün dünyada Azərbaycanın tanıdılması istiqamətində böyük işlər görür. Mən Azərbaycanın Rusiyadakı səfiri kimi çox şadam ki, Azərbaycan mədəniyyətini təbliğ edən Heydər Əliyev Fondunun xətti ilə Moskvada da çoxsaylı tədbirlər keçirilir", - deyə diplomat bildirib.

Polad Bülbüloğlu sərgidə Azərbaycanın turizm potensialını əks etdirən materialların olduğunu da qeyd edib, moskvalıları Azərbaycana dəvət edib. O, həmçinin belə sərgilərin ənənəvi keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Şəhərcikdə Azərbaycan mədəniyyəti və tarixi, milli mətbəx nümunələri təqdim edilir, misgərlik, xalçaçılıq, müxtəlif sənətkarlıq növləri üzrə məhsullar nümayiş etdirilir. Beş gün ərzində Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində konsert və sərgilər təşkil olunacaq, şəhərciyə gələnlərə Azərbaycanın müxtəlif milli sənətkarlıq nümunələrinin hazırlanması və milli rəqslər, musiqi alətlərində ifa üzrə ustad dərsləri də keçiriləcək.

Tədbir çərçivəsində Azərbaycan mətbəxini təqdim edən restoranlar, çay evi, Azərbaycanda istehsal olunan müxtəlif məhsulların satışı təşkil edilib. Həmçinin "I Love Baku" milli suvenir brendinin məhsulları təqdim edilir. Heydər Əliyev Fondunun müxtəlif nəşrləri Moskva sakinlərinə və Rusiya paytaxtının qonaqlarına ölkəmizin mədəniyyəti, tarixi, insanları, incəsənəti və milli mətbəximiz barədə ətraflı məlumat əldə etməkdə yardımçı olacaq.



Şəhərciyin fəaliyyət göstərdiyi günlərdə Dövlət Rəqs Ansamblı və Dövlət İnstrumental Ansamblının, Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə "Qaytağı" ansamblının çıxışları olacaq, Şəhriyar İmanovun müşayiəti ilə musiqi proqramı təqdim ediləcək.

Şəhərciyə gələnlər rəngarəng ərzaq çeşidləri və suvenirlər almaq, müxtəlif ustad dərslərində iştirak etmək, fotosərgi ilə tanış olmaq, yaradıcı kollektivlərin çıxışlarına baxmaq və peşəkar aşpazlardan milli xörəklərin hazırlanması sənətini öyrənmək imkanı əldə edəcəklər. Tədbirin qonaqları Azərbaycan mətbəxinin nümunələrinin dadına da baxa biləcəklər.

**AZƏRTAC**

# İtaliya Senatının sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan İtaliya Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 18-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

*Maria Elisabetta Alberti Kasellati:*

# İtaliya Azərbaycanı özünün ən sadiq tərəfdaşlarından biri hesab edir



**Oktyabrın 18-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov İtaliya Senatı sədrinin Azərbaycana ilk rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirib ki, İtaliya Azərbaycan üçün Avropada və ümumiyyətlə, dünyada ən önəmli tərəfdaşlardan biridir. Əlaqələrin inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin çox böyük rolu var.

Milli Məclisin sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu yaxınlarda İtaliyaya etdiyi rəsmi səfərin önəmini vurğulayaraq, bu səfər çərçivəsində Romadakı Custiniani sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq münasibətlərinə dair konfransın keçirildiyini xatırladıb və bunu ölkələrimizin bir-birinə hörmətinin bariz nümunəsi kimi qiymətləndirib.

İtaliya-Azərbaycan əlaqələrinin möhkəm hüquqi baza üzərində qurulduğunu deyən Oqtay Əsədov diqqətə çatdırıb ki, ölkələrimiz arasında bu günədək 44 ikitərəfli sənəd imzalanıb. Bu sənədlərin ən önəmlilərindən biri "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamədir.

İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu bildirən parlamentin sədri deyib ki, TANAP, TAP, "Cənub Qaz Dəhlizi" layihələri əlaqələrimizin daha da inkişaf edəcəyinə inamı artırır. Hazırda Azərbaycanda 50-dək italyan şirkəti fəaliyyət göstərir. İnanırıq ki, bu şirkətlərin sayı getdikcə çoxalacaq.

Oqtay Əsədov qeyd edib ki, ölkələrimiz arasında mədəni, humanitar əlaqələr də inkişaf edir. Heydər Əliyev Fondu iki ölkə arasında siyasi, mədəni əlaqələrin möhkəmlənməsində böyük rol oynayır.

Sədr Azərbaycan-İtaliya parlamentlərarası əlaqələrinin yaxşı səviyyədə olduğunu vurğulayıb, dostluq qruplarının işini yüksək qiymətləndirib.

Görüşdə Milli Məclisin sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də danışıb. Bildirib ki, 2010-cu ildə İtaliya Senatının Cənubi Qafqazda vəziyyət haqqında qətnaməsi, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi bizim üçün çox əhəmiyyətlidir. O, İtaliya Senatının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına gələcəkdə də öz dəstəyini verəcəyinə inamını ifadə edib.

İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati bildirib ki, bu səfər ölkələrimizin parlamentlərarası əlaqələrinin inkişafına töhfə verəcək. O deyib ki, İtaliya Azərbaycanın malik olduğu parlament ənənələrinə xüsusi önəm verir. 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk parlament yaradıb. Biz 1918-ci ildə Azərbaycanda qadınlara seçki hüququnun verməsindən şərəf duyuruq. Siz bizdən də əvvəl bu hüququ qadınlara vermisiniz.

Sədr sentyabrda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Romada keçirilən görüşünü xatırladıb, müzakirə olunan məsələlərin önəmini qeyd edib. O söyləyib ki, ölkələrimiz arasındakı əməkdaşlıq möhkəm dostluq əlaqələrinin qurulmasında xüsusi rol oynayır.

Maria Elisabetta Alberti Kasellati İtaliya Respublikası Prezidentinin bu yaxınlarda Azərbaycana etdiyi səfərin strateji tərəfdaşlığımızı daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edib. O vurğulayıb ki, İtaliya Azərbaycanı özünün ən sadiq tərəfdaşlarından biri hesab edir. İtaliya Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da inkişafı üçün əlindən gələni etməyə hazırdır. Azərbaycan öz resursları ilə İtaliyanın energetika təchizatında xüsusi rol oynayır. Sədr Azərbaycanda fəaliyyət göstərən italyan şirkətlərinin təkcə neft-qaz deyil, eləcə də infrastruktur, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinə də cəlb edilməsinin vacibliyini vurğulayıb.

Ölkələrimiz arasındakı mədəni əlaqələrdən söz açan Maria Elisabetta Alberti Kasellati Heydər Əliyev Fondunun İtaliyadakı fəaliyyətinin məmnunluq doğurduğunu söyləyib.

**AZƏRTAC**

# Azərbaycan-İtaliya əlaqələrinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, İtaliya Senatının sədri qismində ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Maria Elisabetta Alberti Kasellati Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını qeyd edib.

Münasibətlərin cari səviyyəsini yüksək qiymətləndirən tərəflər qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladılar. Bu xüsusda, tərəflər Azərbaycan və İtaliya arasında dostluq əlaqələrinin daha da inkişafında parlamentlərin fəaliyyətini yüksək qiymətləndiriblər. Həmçinin görüşdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın İtaliyaya son səfərinin nəticələrindən məmnunluq ifadə olunub.

İtaliyanın Azərbaycanın strateji tərəfdaşı olduğunu qeyd edən nazir Elmar Məmmədyarov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi üzrə aparılan köklü islahatlar barədə məlumat verərək İtaliya şirkətlərinin daha da fəal surətdə qeyri-neft sektorunda təmsil olunması üçün cəlbedici imkanların olduğunu bildirib. Nazir Cənub Qaz Dəhlizi və onun vacib hissələri olan TANAP və TAP layihələrinin əhəmiyyətini vurğulayıb. O, bu layihələrin reallaşmasının iqtisadi əlaqələrin daha da inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Son illərdə İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olduğunu vurğulayan tərəflər Azərbaycan-İtaliya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi layihələr təqdir olunub.

Görüşdə elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycanın Baş naziri Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Türkmənistanın qarşıdan gələn milli bayramı - Müstəqillik Günü münasibətilə Rəşid Meredovu təbrik edən Novruz Məmmədov Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini bildirib. Baş nazir Novruz Məmmədov ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, Rəşid Meredovun səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmli olduğunu vurğulayıb. "Siyasi sahədə əlaqələrimiz inkişaf edir. Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyasının, parlamentlərarası dostluq qruplarının, səfirliklərimizin fəaliyyəti ilə yanaşı, bu cür səfərlər münasibətlərimizin dərinləşməsinə töhfə verir", - deyə Baş nazir Novruz Məmmədov vurğulayıb.

İki ölkə arasında iqtisadi sahədə əlaqələri birgə səylərlə daha da inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu qeyd edən Azərbaycanın Baş naziri dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə yükdaşımaları, energetika sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirib.

Bakıya ölkələrimizin Xarici İşlər nazirlikləri arasında ikitərəfli məsləhətləşmələrin aparılması məqsədilə gəldiyini deyən Rəşid Meredov qardaş Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, ölkəmizin Dövlət Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb.

Görüşdə Azərbaycan ilə Türkmənistanın qarşılıqlı olaraq mədəniyyət günlərinin və birgə xalça sərgilərinin keçirilməsi imkanları ilə bağlı, həmçinin maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq əlaqələrinin əhəmiyyətindən danışılıb



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra İtaliya ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, ölkələrimiz arasında müxtəlif sahələrdə çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən Novruz Məmmədov artıq ikitərəfli münasibətlərin müxtəlif sahələrdə sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını deyib.

Əməkdaşlığımızın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin rolundan danışan Novruz Məmmədov bildirib ki, bu il İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliyaya səfərləri, aparılan səmərəli danışıqlar ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə mühüm töhfə verir.

Mədəni əlaqələrin xalqları yaxınlaşdırdığını vurğulayan Baş nazir Novruz Məmmədov Azərbaycan xalqının tarixən İtaliya mədəniyyətinə böyük maraq göstərdiyini diqqətə çatdırıb. Baş nazir İtaliya operasının dünyadakı şöhrətindən danışaraq Azərbaycanın da Şərqdə ilk operanın məkanı kimi tanındığını xatırladıb.

Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi üçün namizədliyinin irəli sürüldüyünü deyən Novruz Məmmədov İtaliyanın Azərbaycanın namizədliyini dəstəkləyəcəyinə ümidvar olduğunu bildirib.

Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycan ilə İtaliya arasında müxtəlif istiqamətlər üzrə, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə yaxşı əlaqələrin qurulduğunu, əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Senatın sədri Heydər Əliyev Fondunun İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən tarixi abidələrin bərpası ilə bağlı həyata keçirdiyi layihələrin ölkəsində yüksək dəyərləndirildiyini deyib, humanitar əlaqələrin daha da genişləndirilməsinin önəmini xüsusi vurğulayıb.

Maria Elisabetta Alberti Kasellati İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyini söyləyib. Senatın sədri bildirib ki, İtaliya şirkətləri Azərbaycanda nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, infrastruktur və digər sahələrdə fəaliyyət göstərməkdə maraqlıdır.

Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirən qonaq deyib ki, Cənub Qaz Dəhlizi gələcəkdə ölkələrimizin iqtisadi əməkdaşlığının daha da genişlənməsinə xidmət edir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan və Türkmənistan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib



**Oktyabrın 18-də Bakıda Azərbaycan və Türkmənistan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Türkmənistan tərəfdən isə Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov rəhbərlik ediblər. Həmsöhbətlər iki qonşu ölkə arasında ənənəvi əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafı prioritetlərinin dövlət başçıları tərəfindən müəyyən edildiyini bildiriblər. Bu xüsusda, Rəşid Meredov ölkəmizə səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini minnətdarlıq hissi ilə söyləyib.

Elmar Məmmədyarov məsləhətləşmələrin keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirərək, bunun ikitərəfli münasibətlərin geniş gündəliyi üzrə müxtəlif məsələlər ətrafında mövqelərin əlaqələndirilməsi üçün gözəl imkan yaratdığını qeyd edib. Məsləhətləşmələr çərçivəsində siyasi-diplomatik əlaqələrin, o cümlədən ən yüksək səviyyədə səfərlər mübadiləsinin davam etdirilməsi, beynəlxalq və regional əməkdaşlıq barədə ətraflı müzakirələr aparılıb. Aktau Zirvə toplantısında imzalanmış Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyanın tarixi əhəmiyyəti bir daha vurğulanıb. İki ölkə arasında ticari-iqtisadi əməkdaşlıqda müşahidə olunan müsbət dinamika qeyd edilərək, onun keyfiyyət baxımından yeni, daha yüksək səviyyəyə qaldırılması məqsədilə ayrı-ayrı dövlət qurumları və işgüzar dairələr tərəfindən yerinə yetirilməli işlərin əlaqələndirilməsi perspektivləri barədə müzakirə aparılıb. Mədəni-humanitar, logistika və sənaye sahələrində münasibətlərin daha da inkişaf etdirilməsi üçün əlverişli əməkdaşlıq fürsətlərinin olduğu vurğulanıb.

Görüş əsnasında Rəşid Meredov beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT sisteminə daxil olan qurumlarda Türkmənistanın təşəbbüslərinin nəinki sadəcə dəstəklənməsi, bir çox hallarda onlara həmmüəllif olaraq qoşulmasına görə Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirib.

Elmar Məmmədyarov beynəlxalq təşkilatlarda müxtəlif məsələlər üzrə, ən başlıcası isə Ermənistan-Azərbaycan münaqişəsi kontekstində ölkəmizin ərazi bütövlüyü və suverenliyinə göstərdiyi dəstəyə görə Türkmənistan tərəfinə minnətdarlığını ifadə edib.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin göstərilməsi, ölkələr arasında müqavilə-hüquq bazasının genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, o cümlədən qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq məsələlər müzakirə olunub.

Məsləhətləşmələrin yekunlarına dair nazirlər səviyyəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkmənistanın Xarici İşlər Nazirliyi arasında 2019-2020-ci illər üçün əməkdaşlıq proqramı imzalanıb.

**AZƏRTAC**

# Azərbaycan nümayəndə heyəti Pekində Tayhu Dünya Mədəniyyət Forumunda iştirak edir





**Çinin paytaxtı Pekində Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclası işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, "Sivilizasiyalararası dialoq: başəriyyət üçün ortaq gələcəkli cəmiyyətin qurulması" mövzusunda keçirilən builki iclasda dünyanın 40-dan çox ölkəsindən dövlət rəsmiləri, elm adamları, ictimai xadimlər, mədəniyyət sahəsinin fəalları daxil olmaqla, ümumilikdə, mindən çox nümayəndə iştirak edir.

Azərbaycanı bu beynəlxalq forumda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

İclasın açılış mərasimində çıxış edən Ümumçin Xalq Nümayəndələri Yığıncağının (parlament) sədr müavini Van Çen Çin Xalq Respublikasının Sədri Si Cinpinin forum iştirakçılarına müraciətini oxuyub. O, forumun müxtəlif mədəniyyətlərin mübadiləsi vasitəsilə birgə gələcəyin qurulmasına dair müzakirələrin aparılması üçün yaxşı platforma olduğunu deyib.

Baş nazirin müavini Əli Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclasının iştirakçılarına müraciətini oxuyub.

Azərbaycan-Çin münasibətlərinin böyük tarixi olduğunu diqqətə çatdıran Əli Əhmədov deyib ki, ölkəmiz Çin ilə əlaqələrin bütün sahələrdə inkişafına əhəmiyyət verir. Möhkəm təməllər üzərində qurulan, dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-Çin əlaqələrini hazırda dinamik inkişaf edən çoxtərəfli ciddi tərəfdaşlıq münasibətləri kimi səciyyələndirmək olar.

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əməkdaşlığımızın daha da dərinləşməsi üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran Baş nazirin müavini əlavə edib ki, Azərbaycan bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən biri olmaqla yanaşı, onun icrasına töhfə verməyə hazırdır.

Qeyd olunub ki, tarixən müxtəlif xalqların və fərqli dinlərə inananların sülh, mehriban şəraitdə yaşadıqları Azərbaycan multikulturalizm, tolerant dəyərləri ilə seçilib. Hazırda multikulturalizm Azərbaycanda dövlət siyasəti olmaqla yanaşı, cəmiyyətin həyat tərzidir.

Dünyada bir çox ölkələrin dinlərarası qarşıdurma, separatizm, etnik təmizləmə, terrorizm kimi müxtəlif narahatlıqlarla üzləşdiyini bildirən Əli Əhmədov diqqətə çatdırıb ki, qonşu Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycan ümid edir ki, haqq-ədalət təmin olunacaq və BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin tələbləri yerinə yetiriləcək, torpaqlarımız işğaldan azad olunacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək. Baş nazirin müavini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Çin tərəfinə təşəkkür edib.

Dünyanı narahat edən mövzuların müzakirəyə çıxarıldığı Tayhu Forumunun əhəmiyyətini qeyd edən Baş nazirin müavini deyib ki, birgə xoşbəxt gələcəyin qurulması hər kəsi düşündürən məsələ olmalıdır.

Ümumi, 6 tematik və yekun iclaslardan ibarət forumda beynəlxalq münasibətlər, iqtisadiyyat, mədəniyyət, ekologiya, fəlsəfə, sosiologiya və təbabət mövzularında, habelə "Bir kəmər, bir yol" təşəbbüsünə dair müzakirələr aparılır.

Forumun liderlər panelində çıxış edən Əli Əhmədov Azərbaycanın iqtisadi inkişafından, ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqun dərinləşməsi ilə bağlı gördüyü işlərdən danışıb, bu istiqamətdə Azərbaycanda keçirilən beynəlxalq tədbirləri qeyd edib. Bildirib ki, Azərbaycanın təşəbbüsü ilə icra olunan irimiqyaslı enerji və nəqliyyat layihələri, o cümlədən Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars layihəsi ölkəmizin regional və beynəlxalq əməkdaşlığa və inkişafa verdiyi böyük töhfələrdəndir.

Baş nazirin müavini Çin təbabəti mədəniyyətinin inkişafı ilə bağlı bölmə iclasında çıxış edərək xalqlarımız arasında tarixən mövcud olan dostluq əlaqələrindən, müasir dövrdə iki ölkənin münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən tibb sahəsində inkişafından danışıb.

Azərbaycan nümayəndə heyətinin digər üzvləri də iclasın müxtəlif mövzularda bölmə iclaslarında məruzəçi qismində çıxış ediblər.

Nümayəndə heyəti Pekində İmperator sarayı (Ququn sarayı) və Saray muzeyi ilə tanış olub.

Qeyd edək ki, Çin dövlətinin dəstəyi ilə 2008-ci ildə yaradılan yüksək səviyyəli beynəlxalq mədəniyyət forumu olan Tayhunun 2011-ci ildən illik iclasları keçirilir.

İllik iclas Çinin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Tayhu Dünya Mədəniyyəti Forumu və nüfuzlu "China Daily" qəzeti tərəfindən təşkil edilib.

AZƏRTAC

# Azərbaycanın müdafiə naziri "Beynəlxalq gələcək qüvvələr sərgisi 2018"də iştirak edir



**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çex Respublikasına səfəri çərçivəsində bu ölkənin Müdafiə, Daxili İşlər, Xarici İşlər nazirliklərinin, Silahlı Qüvvələrin Baş Qərargahının, NATO qərargahının, Avropa Müdafiə Agentliyinin və bir sıra digər milli və beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən "Beynəlxalq gələcək qüvvələr sərgisi 2018"də iştirak edir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu tədbir milli və qlobal təhlükəsizlik hədəflərinin təqdimi və təşviqi, eyni zamanda, müdafiə və təhlükəsizlik sahələri üzrə məlumat mübadiləsi məqsədilə keçirilən beynəlxalq səviyyədə tanınmış nüfuzlu bir platformadır.

Sərgidə 60-dan çox ölkənin 1200-dək şirkəti iştirak edir. Azərbaycan nümayəndə heyəti həmin sərgiyə qatılan xarici ölkələrin müdafiə şirkətlərinin istehsal etdiyi məhsullarla tanış olaraq onların təyinatları barədə ətraflı məlumat alıb.

Səfər çərçivəsində müdafiə naziri Z.Həsənov bir sıra müdafiə şirkətlərinin rəhbərliyi ilə ikitərəfli görüşlər də keçirib.

AZƏRTAC

# Azərbaycanın iştirakı ilə Çində Kəmər və Yolun Enerji Tərəfdaşlığı Bəyannaməsi imzalanıb




**Energetika naziri Pərviz Şahbazov Çində keçirilən "Kəmər və Yol Energetika Nazirləri Konfransı"nda çıxış edib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir çıxışında Çin və Azərbaycanın tarixi İpək Yolunun bərpası ilə qitələr və sivilizasiyalar arasında birləşdirici missiya yerinə yetirdiyini, Cənub-Şərqi Asiya, Afrika və Şərqi Avropanı əhatə edən böyük bir coğrafiyada "Bir Kəmər - Bir Yol" təşəbbüsünün yeni əməkdaşlıq modeli formalaşdırdığını bildirib.

Azərbaycanın Bakı-Tbilisi-Qars, Şimal-Cənub kimi böyük nəqliyyat layihələri, eləcə də Ələt Beynəlxalq Dəniz Limanı ilə "Bir Kəmər - Bir Yol" təşəbbüsünə töhfələr verdiyini vurğulayan energetika naziri bu layihələrin reallaşmasına məhz ölkənin enerji siyasətinin dəstək verdiyini qeyd edib. Ölkənin enerji potensialı və reallaşdırılan layihələrdən, eləcə də Xəzərlə yanaşı, Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının beynəlxalq bazarlara ixracına imkan yaradan neft-qaz infrastrukturlarının yaradılmasından bəhs edilib.

P.Şahbazov deyib: "Çinlə bərabər "Bir Kəmər - Bir Yol" layihəsinin digər əksər üzvləri ilə enerji sahəsində bir çox istiqamətlər üzrə mövcud əməkdaşlığımızı daha da inkişaf etdirə bilərik. Çünki Azərbaycanın enerji layihələri ilə yeni bazarlara çıxış və yeni ixrac marşrutları qazanmaq olar. Azərbaycan əməkdaşlıq vasitələri kimi enerji resurslarını, bərpaolunan enerji potensialını, tranzit imkanlarını, neft-qaz emalı, neft-kimya sektorunda birgə layihələr təklifini təqdim edə bilər".

İlk dəfə keçirilən Energetika Nazirlərinin Konfransında enerji sahəsində investisiyaların sadələşdirilməsi, gələcəyin enerjisi və enerji məhsullarının maneəsiz ticarəti mövzularında müzakirələr aparılıb. Konfransın yekununda "Kəmər və Yolun Enerji Tərəfdaşlığının Qurulmasına dair Nazirlərin Birgə Bəyannaməsi" imzalanıb. Bəyannamədə ətraf mühitin mühafizəsi, iqlim dəyişiklikləri və dayanıqlı inkişafla bağlı çağırışların birgə əməkdaşlığı aktuallaşdırdığı, "Bir Kəmər - Bir Yol" təşəbbüsünün beynəlxalq əməkdaşlıq üçün açıq və inklüziv platforma kimi yeni imkanlar yaradacağı qeyd olunub. Kəmər və Yolun Enerji Tərəfdaşlığının yaradılmasına dəstək ifadə olunub. Sənəddə, həmçinin bu tərəfdaşlığın, iştirakçı ölkələr arasında enerji sektorunda ümumi inkişaf və tərəqqiyə məsləhətləşmə və əməkdaşlıq vasitəsilə birgə nail olmaq prinsipinə əsaslanacağı əks olunub.

Qeyd edək ki, "Bir Kəmər - Bir Yol" təşəbbüsü Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülüb. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumunun imzalanması ilə Azərbaycan da bu təşəbbüsə dəstəyini ifadə edib.

AZƏRTAC

# "Son 15 ildə müstəqil Azərbaycan heyrətamiz inkişaf və yüksəliş yolu keçib" mövzusunda tədbir təşkil olunub

**Oktyabrın 18-də Dövlət Təhlükəsizliyi Xidmətində "Son 15 ildə müstəqil Azərbaycan heyrətamiz inkişaf və yüksəliş yolu keçib" mövzusunda tədbir təşkil olunub.**



Tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova, DTX-nin əməkdaşları və Azərbaycan təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

General-polkovnik Mədət Quliyev çıxış edərək bildirib ki, xalqımızın əsrlərboyu arzusunda olduğu müstəqil dövləti öz dühası və yorulmaz səyləri ilə qurub, qoruyub və gələcək nəsillərə əmanət etmiş ümummilli lider Heydər Əliyevin misilsiz dövlətçilik xətti hazırkı yeniləşmə və müasirləşmə mərhələsində Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi qeyd edib ki, dövlətimizin başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi milli inkişaf strategiyası sayəsində regionun lider dövlətinə çevrilmiş Azərbaycan bu gün xariqələr yaradır, yeni tərəqqi zirvələrini inamla fəth edir. Ulu Öndərin şah əsəri olan müasir Azərbaycanın son 15 ildə bütün sahələrdə əldə etdiyi nailiyyətlər və zəfərlər bir daha sübut edir ki, dövlətin sükanı etibarlı və qüdrətli əllərdədir. Alternativi olmayan bu qətiyyətli siyasət nəticəsində dövlət müstəqilliyimiz, hərbi potensialımız, xalq-iqtidar vəhdəti və milli həmrəylik günbəgün daha da möhkəmlənir, ölkəmizin heyrətamiz inkişafı və qazandığı möhtəşəm nailiyyətlər hər bir vətənpərvər azərbaycanlı tərəfindən sonsuz rəğbət və iftixar hissi ilə qarşılanır.

Milli Məclis sədrinin müavini Bahar Muradova Dövlət Təhlükəsizliyi Xidmətində belə bir əlamətdar tarixə həsr olunan tədbirdə çıxış etməkdən qürur duyduğunu bildirərək, ulu öndər Heydər Əliyevin şanlı peşəkarlıq məktəbinin davamçılarına həyatda və xidmətdə müvəffəqiyyətlər arzulayıb.

Bahar Muradova bildirib ki, hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağını vəd edən və bu 15 il ərzində də sözlə əməlin vəhdət nümunəsini ortaya qoyan dövlətimizin başçısı İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi qüdrətinin artmasına, mədəni və elmi cəhətdən tərəqqisinə sərf etməkdədir. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin şah əsəri olan, müstəqilliyini etibarlı şəkildə qoruyub saxlayan, azad və firavan bir dövlətin lideri olaraq ölkə vətəndaşlarının rifahı və xoşbəxt gələcəyi, ləyaqətli həyat tərzi naminə göstərilən xidmətlərin müəllifi kimi tarixi missiyanın daşıyıcısıdır.

Qeyd edək ki, bu mövzuda tədbirlər Dövlət Təhlükəsizliyi Xidmətinin bütün struktur bölmələrində keçirilib.

AZƏRTAC

*Mikola Kurka:*

# Azərbaycan son 15 ildə hüquqi dövlətin inkişafı istiqamətində fundamental işlər görüb

**Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyətə gəldiyi 15 il ərzində hüquqi dövlətin qurulması və onun inkişafı istiqamətində fundamental işlər görülüb.**

Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Regionlararası İşçiləri İdarəetmə Akademiyasının rektoru, hüquq elmləri doktoru Mikola Kurka söyləyib.

Bu müddət ərzində Azərbaycanda ictimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunda verilən qərarları yüksək qiymətləndirən M.Kurko bildirib ki, bu gün Azərbaycan regionda lider dövlətə çevrilib. "Azərbaycanın inkişafına ancaq sevinmək olar. Çünki Azərbaycan dünya dövlətləri ilə səmimi, mehriban, hüquqi dövlət prinsiplərinə uyğun siyasət yeridir", deyə o əlavə edib.

Rektor qeyd edib ki, Azərbaycan dayanıqlı, milli maraqları özündə təcəssüm etdirən uğurlu siyasət yürüdür. Bu da öz nəticələrini verməkdədir.

AZƏRTAC

# İstanbulda Azərbaycanın Dövlət Müstəqilliyi Günü qeyd olunub

**Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümü münasibətilə İstanbulda mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Üsküdar rayon bələdiyyəsinin dəstəyi ilə Türkiyə-Azərbaycan Dərnəyi (İSTAD) tərəfindən təşkil olunan mərasimdə İstanbulda yaşayan və çalışan soydaşlarımız, iki qardaş ölkəni təmsil edən tanınmış ziyalılar, QHT və KİV təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Gəzinti gəmisinin göyərtəsində təşkil olunan mərasimdə İSTAD-ın sədri Səfər Qaraqoyunlu Azərbaycanın müstəqilliyinin bərpasının tarixindən danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra böyük problemlərlə üz-üzə dayanıb. Lakin ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində Azərbaycan xalqı öz azadlığını qoruya bilib. Məhz bunun sayəsində Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri tarixdə ən yüksək zirvəyə qədəm qoyub.

Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin inkişafındakı fəaliyyətləri ilə fərqlənən bəzi şəxslərə İSTAD-ın mükafat və hədiyyələri təqdim olunub.

Mərasim bədii proqramla davam edib.

AZƏRTAC

*Rusiyalı tarixçi:*

# Ermənistanda faşizmin qəhrəmanlıq kimi təqdim edilməsi aktuallığını itirmir

**Ermənistanın milli qəhrəmanı Qaregin Njde dövləti cinayətkardır. Q.Njde hitlerçilərlə təkcə SSRİ-yə qarşı deyil, hazırda hitlerçilərin abidələrinin qoyulmasına icazə vermiş bir sıra Avropa ölkələri əleyhinə də əməkdaşlıq edib. Məsələn, Bolqarıstanda erməni nasisti Qaregin Njdenin abidəsinin qoyulması qeyri-legitimdir və beynəlxalq hüquq prinsiplərini pozur. Rusiyanın dövlət arxivlərində saxlanılan sənədlərdən məlum olur ki, Bolqarıstan təbəəsi olan Q.Njde 1940-cı ildən üçüncü Reyxin hərbi kəşfiyyat orqanları ilə əməkdaşlıq edib. Əminliklə deyə bilərik ki, o, 1944-cü ildən Bolqarıstanda və ona bitişik ərazilərdə - Makedoniyada, Frakiyanın Türkiyə və Yunanıstan ərazilərində siyasi vəziyyət barədə informasiyanın yeganə mənbəyi olub. Yeni Bolqarıstan vətəndaşı ola-ola, bu ölkəyə qarşı casusluq edib. Casusluq ən iyrənc dövləti cinayətdir və hərbi dövrün qanunları ilə sərt şəkildə cəzalandırılır. Q.Njde Sovet İttifaqında həbs olunub və 25 il təkadamlıq kamerada həbs cəzasına məhkum edilib. Bu onu göstərir ki, Q.Njde faşizm ideyası tərəfdarı kimi təqib olunub. Q.Njde bütün bəşəriyyətin düşmənidir.**

AZƏRTAC xəbər verir ki, bunu rusiyalı tarixçi və hüquqşünas, professor Oleq Kuznetsov oktyabrın 18-də Bakıda, Beynəlxalq Mətbuat Mərkəzində "Ermənistan: İcazə verilmiş nasizm ölkəsi" mövzusunda həsr olunmuş mətbuat konfransında bəyan edib.

O.Kuznetsov deyib: "Ermənistanın milli qəhrəmanı Qaregin Njde dövləti cinayətkardır. Gəldiyimiz əsas qənaət budur ki, erməni millətçiləri hitlerçilərlə təkcə Sovet İttifaqına qarşı deyil, Avropanın digər ölkələrinə qarşı da əməkdaşlıq ediblər. Bolqarıstanın qəhrəmanı kimi təqdim edilən Q.Njdenin abidəsi qeyri-legitimdir, qeyri-qanunidir və müasir beynəlxalq hüququn bütün prinsiplərini pozur".

Rusiyalı politoloq, jurnalist Yevgeni Mixaylov qeyd edib ki, faşizmin qəhrəmanlıq kimi təqdim edilməsi problemi bu gün təkcə Ermənistanda aktual deyildir, MDB-nin digər ölkələrində, o cümlədən Rusiyada da belə cəhdlər baş verir.

Politoloq deyib: "Zənnimcə, Ermənistan Q.Njdeyə abidə qoymaqla, nasistləri qəhrəman kimi qələmə verməklə, terrorçuları Dağlıq Qarabağda toplamaqla dünyaya göstərir ki, diplomatiya ilə məşğul olmaqdansa, başqalarının torpaqlarını silah gücünə zəbt etmək lazımdır. Odur ki, öz iddialarını Ermənistana açıq bildirmək lazımdır. Yerevanda hakimiyyətə gələn siyasətçilər açıq-aydın nasizmin təbliğini dəstəkləyirlər. Ermənistanın rəhbərləri həmişə öz xalqına xəyanət ediblər. Erməni xalqı bunu başa düşməlidir. Ermənilər çəkic götürüb bu abidəni sındırmalı və belə addımlara görə dünya birliyi qarşısında üzr istəməlidirlər".

Onun sözlərinə görə, milli üstünlük oyunları oynamaq yolverilməzdir.

Y.Mixaylov vurğulayıb: "Nasist Almaniyası tam iflasa uğrayaraq ömrünü başa vurdu. Əgər vəziyyət dəyişməsə, Ermənistan da öz yolunu bu şəkildə bitirə bilər".

Mətbuat konfransı çərçivəsində rusiyalı jurnalist Yevgeni Mixaylovun "Tarixi müttəfiqlərin qəribə oyunları" filmi nümayiş etdirilib. Film Ermənistan-Rusiya münasibətlərinin Rusiya tərəfində getdikcə daha çox sual doğuran indiki vəziyyətinə həsr olunub. Filmdə rəsmi Moskvanın Qərb, ilk növbədə ABŞ tərəfindən daha böyük təzyiqlərlə üzləşəcəyi təqdirdə, Ermənistanın, habelə Rusiyanın erməni diasporunun özünü necə aparacağı barədə sual qaldırılır. Bundan əlavə, Yerevanın Azərbaycanın və Türkiyənin Rusiyanın düşmənləri olmasına Moskvanı inandırmaq cəhdlərindən də danışılır. Filmin müəllifinin fikrincə, Q.Njdenin qəhrəman kimi qələmə verilməsi dünyada faşizmin təbliğinə qarşı mübarizə aparan Rusiyanın ünvanına siyasi təhqirdir. Rusiya telekanalları və KİV-ləri dəfələrlə qeyd ediblər ki, Ermənistanda hakimiyyətdə nasist simvolikası və ideologiyası elementlərindən istifadə edən millətçilər oturublar.

Sonda Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı Azad Rzayev tarixi hadisələrin obyektiv təhlilinə görə rusiyalı tarixçiyə və jurnalistə təşəkkür edib. O.Kuznetsov bildirib ki, bu mövzuya dair növbəti monoqrafiya hazırlamağı planlaşdırır.

AZƏRTAC

*Doqquz ayın yekunları*

# Davamlı inkişaf yolunda






**İnkişaf tempi davam edir. Bakının Nərimanov rayonunda sosial-iqtisadi vəzifələrin həyata keçirilməsinə maksimum səy göstərilir, abadlıq və quruculuq işləri genişlənir, insanların həyat tərzi yaxşılaşır.**

Oktyabrın 17-də rayon icra hakimiyyətində 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirildi.

Yığıncaqda rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev hesabat məruzəsi ilə çıxış edərək vurğuladı ki, ölkə Prezidenti cənab İlham Əliyevin Bakının və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafına dair təsdiq etdiyi müvafiq proqramlar, imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar Nərimanov rayonunun da sürətli inkişafına, infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, sosial-mədəni obyektlərin yaradılmasına, bununla da, əhalinin rifah halının yaxşılaşdırılmasına, layiqli həyat tərzinin təmin olunmasına müstəsna töhfələr vermişdir. Son illər Nərimanov rayonunun geniş quruculuq məkanına çevrilməsinin ən başlıca səbəblərindən biri ölkəmizin bütün bölgələri kimi, bu rayona da dövlət başçısı möhtərəm cənab İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı göstərilməsidir.

Əhalinin məşğulluq səviyyəsinin qısa vaxt ərzində artırılması üçün birinci növbədə tikinti sektorunun inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Buna görə də tikinti sektorunda fəaliyyət göstərən iş adamları və sahibkarların fəaliyyəti üçün münbit şəraitin yaradılması bir vəzifə kimi qarşıya qoyulmuş və bu sahənin inkişaf etdirilməsi üçün çox mühüm tədbirlər həyata keçirilmişdir.

Rayonun abadlaşdırılması, mənzil-kommunal obyektlərinin istismarı vəziyyətinin yaxşılaşdırılması sahəsində 2018-ci ilin 9 ayı ərzində müvafiq işlər görülmüşdür.

2018-2019-cu il payız-qış mövsümünə hazırlıqla əlaqədar, 4408 kv.m. sahədə dam örtüyü cari təmir edilmiş, ümumi istifadədə olan yerlərdə 98 ədəd qapı, 190 ədəd pəncərə bloku yenisi ilə əvəz edilmiş, 708 mənzilin tüstü bacaları təmizlənmiş, 670 kv.m. sahədə şüşələnmə işləri aparılmışdır. Bununla yanaşı, rayonun sanitar vəziyyətinə diqqət artırılmış, məişət tullantılarının daşınıb zərərləşdirilməsi üçün nəzərdə tutulmuş 470 ədəd konteynerin təkərləri yenisi ilə əvəz edilmiş və deşilmiş yerləri təmir olunaraq bütün konteynerlər rənglənmişdir.

Rayon Enerji Təchizatı və Satış İdarəsi tərəfindən 1440 m 0,4 kV-luq və 5660 m 6/10 kV-luq kabellər yenisi ilə əvəz olunmuş və ya yeni kabellər çəkilmişdir. 11 binada və 34 ədəd ümumi həyət tipli evlərdə sayğac şitləri və xətlər demontaj olunmuşdur.

Nərimanov Rayon Sukanal İdarəsinin Su Şəbəkələri və Qurğularının İstismarı Xidməti tərəfindən cari ilin 9 ayı ərzində 59 ədəd nasos təmir olunmuş, 566 p.m. su borusu, 149,5 p.m. çirkab sular borusu dəyişdirilmiş, 10 ədəd siyirtmə dəyişdirilmişdir. Bununla yanaşı, 189 ədəd su sayğacı dəyişdirilmiş, 682 ədəd yeni sayğac quraşdırılmış, 7 ünvanda nasos stansiyası ləğv edilmiş, 22 ədəd binanın zirzəmisindəki su xətləri təmir edilmişdir.

Nərimanov Rayon Qaz İstismar Sahəsi tərəfindən cari ilin 9 ayı ərzində yeraltı və yerüstü qaz kəmərlərinə profilaktiki xidmət göstərilmişdir. Bununla yanaşı, 6197 p.m. yeni magistral qaz xətti çəkilmiş, təmir olunmuş və ya dəyişdirilmiş, 10 ədəd Qaz Tənzimləyici Məntəqə yenisi ilə əvəz olunmuşdur.

Bakı şəhər 2 və 3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birlikləri, eləcə də rayon ərazisində yerləşən şirkət və nazirliklərin nəzdində fəaliyyət göstərən digər Mənzil-Kommunal İstismar Sahələri tərəfindən ayrı-ayrı ünvanlarda yerləşən binaların dam örtükləri, daxili kommunikasiya xətləri, yağış suları axıdılan navalçalar, ümumi girişlərdəki pəncərə və qapılar dəyişdirilmiş, zirzəmilərdə yığılan suların çəkilməsi və kəskin qəzalı vəziyyətdə olan evlərin təmiri üçün zəruri tədbirlər həyata keçirilmiş, həyətlərdəki oturacaqlar və məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər rənglənmişdir.

2018-ci ilin 9 ayı ərzində təhsil və səhiyyə sahəsində işlər davam etdirilmişdir. 2017/2018-ci tədris ilində Nərimanov rayonu ərazisində fəaliyyət göstərən 23 ümumtəhsil müəssisəsində 26860 şagird təhsil alıb. Respublika Olimpiadasında Humanitar Fənlər Gimnaziyasının 11-ci sinif şagirdi Lətifov Murad və 36 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Novruzlu Ayxan coğrafiyadan II yerlərə, 39 nömrəli tam orta məktəbin şagirdi Əhmədova Fazilə fizikadan II yerə, Bakı Modern Təhsil Kompleksinin şagirdi Əliyev Kamran informatikadan III yerə, 45 nömrəli tam orta məktəbin şagirdi Kərimli Elvin və Humanitar Fənlər Gimnaziyasının şagirdi Ağayeva Nuray tarix fənnindən III yerlərə nail olmuşlar.

Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2018-ci ilin 9 ayı ərzində 121 tədbir keçirilmiş, tədbirlərdə 10948 nəfərdən çox uşaq, yeniyetmə və gənc iştirak etmişdir. Tədbirlər əsasən Dövlət Gənclər və İdman Siyasətinin həyata keçirilməsi üçün yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində müxtəlif intellektual oyunları, gənclərin vətənpərvərlik ruhda tərbiyə olunması, Vətənə sevgi hissinin aşılanması üçün görüş və seminarlar, onların zərərli vərdişlərdən uzaqlaşması və sağlam ruhda böyüməsi üçün maarifləndirmə və sair tədbirlər, həmçinin, kütləvi bədən tərbiyəsi və idmanın inkişafı üçün bir sıra yarış və çempionatlar keçirilmişdir.

Nərimanov Bələdiyyəsi tərəfindən büdcəyə daxil olmuş vəsait hesabına bələdiyyə ərazisində yaşayan, sosial cəhətdən ehtiyacı olan 10 ailə himayəyə götürülmüş və 9 ailəyə isə birdəfəlik maddi yardım edilmişdir. Əlamətdar bayram günləri qeyd edilmiş, abadlıq işləri aparılmışdır.

Rayon rəhbərliyi tərəfindən təsdiq olunmuş qrafikə əsasən 2018-ci ilin ötən dövrü ərzində 20 səyyar qəbul və görüş keçirilmişdir. Keçirilmiş görüş və qəbullarda rayon sakinləri, əmək kollektivlərinin üzvləri, məcburi köçkünlər rayon rəhbərliyi tərəfindən qəbul edilmişlər.

Yığıncaqda millət vəkillərindən Rasim Musabəyov, Hikmət Babaoğlu, S.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının direktoru Xuraman Osmanova, 7 saylı Uşaq Yoluxucu Xəstəlikləri Xəstəxanasının baş həkimi Mehriban İsayeva çıxış etdilər.

Tədbirdə Prezident Administrasiyasının məsul işçisi Tağı Tağıyev iştirak edirdi. Rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev yığıncağı yekunlaşdıraraq əminliklə vurğuladı ki, 2018-ci ildə uğurlu nəticələrə imza atılacaq, sosial-iqtisadi vəzifələr uğurla icra olunacaqdır.

**Qədir ASLAN, "Respublika".**

# İlin yekunları və qarşıda duran vəzifələr






**Hesabat iclasında Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları, ağsaqqallar, gənclər və Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri iştirak etdilər.**

İcra hakimiyyətinin başçısı Mahir Quliyev geniş məruzə ilə çıxış edərək rayonda 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı ətraflı məlumat verdi.

İcra başçısı bildirdi ki, 2018-ci il rayonumuz üçün xüsusilə əlamətdar olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin 2018-ci ilin sentyabr ayının 18-də rayonumuza səfər etməsi hər bir biləsuvarlının yaddaşında unudulmaz xatirəyə çevrilib. Məhz həmin gün cənab Prezident rayonumuz üçün xüsusi əhəmiyyət kəsb edən Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun, Gənclər evinin və Bayraq Muzeyinin açılışını etdi.

Mahir Quliyev qeyd etdi ki, 2018-ci ilin doqquz ayında ümumi məhsul buraxılışının həcmi rayon üzrə 234 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12.7 faiz çoxdur. Ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatının payı 99.9, ticarətdə 66.1, sənayedə 29.9, tikintidə 35.3, nəqliyyat və rabitədə isə 2.8 milyon manat təşkil etmişdir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün sahələr üzrə çoxdur.

O cümlədən rayonumuzda pambıq əkinlərini daha da genişləndirməklə 12 min hektara çatdırılmışdır ki, bunun da 3440.8 hektarı "MKT İK" MMC, 3682.5 hektarı "Azərpambıq" MMC, 1310.2 hektarı rayon Kənd Təsərrüfatı İdarəsinin nəzdində yaradılmış MMC və 3566.5 hektarı isə fərdi mülkiyyətçilər tərəfindən həyata keçirilmişdir. Hazırda sahələrdən 10166 tondan çox məhsul toplanmışdır. Məhsul yığımı sürətlə davam edir.

2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında 15453 hektarı buğda, 14185 hektarı isə arpa olmaqla, ümumilikdə 29638 hektar payızlıq dənli bitkilər əkilmişdir. Sahələrdən 82797 ton məhsul əldə edilmişdir ki, bunun da 45328 tonunu buğda, 37469 tonunu arpa bitkisi təşkil etmişdir.

Bundan əlavə, hesabat dövründə yazlıq əkinlər üzrə 44953 ton tərəvəz, 1497 ton bostan, 6994 ton kartof, 24629 ton şəkər çuğunduru, 300 ton çəltik, 1080 ton günəbaxan, 1137 ton qarğıdalı istehsal olunmuşdur. Bu dövrdə iribuynuzlu mal-qaranın baş sayı 41.8 min başa, xırdabuynuzlu heyvanın baş sayı 140 min başa çatdırılmışdır.

Rayonda tikinti, abadlıq və quruculuq sahələrindən danışan rayon rəhbəri bildirdi ki, 2018-ci ilin doqquz ayında. Biləsuvar şəhərində inşa olunan Bayraq Muzeyi, Gənclər Mərkəzi və 20,5 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən uzunluğu 15,4 km olan Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun tikintisi başa çatdırılaraq istifadəyə verilmiş, Xırmandalı kəndində 40 yerlik uşaq bağçasının tikintisi başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2018-ci il tarixli sərəncamları ilə Biləsuvar şəhərində istismar müddəti başa çatmış 4 ikimərtəbəli çoxmənzilli binanın sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi üçün 3,0 milyon manat, Biləsuvar şəhərində 1176 yerlik ümumtəhsil məktəbi binasının tikintisi üçün ilkin olaraq 2,0 milyon manat, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km) - Biləsuvar avtomobil yolunun yenidən qurulması məqsədi ilə ilkin olaraq 3,0 milyon manat ayrılmışdır.

Mahir Quliyev bildirdi ki, hazırda Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi - Biləsuvar avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmışdır. Bu yolda yolun hərəkət zolağı genişləndirilməklə və 2 qat asfalt-beton örtük qoyulmaqla əsaslı yol təmir işləri aparılır. Bundan əlavə, 48 mənzilli yaşayış binasının və 1176 yerlik məktəb binasının tikiləcəyi ərazidə tikintinin başlanması üçün hazırlıq işləri aparılır. Qısa müddət ərzində hər iki obyektdə tikinti işlərinə başlanılacaqdır.

Rayonda təhsilin uğurlarından danışan icra başçısı qeyd etdi ki, məzunların ali və orta ixtisas məktəblərinə qəbulundakı müsbət irəliləyişlər sevindiricidir. Belə ki, məzunlardan 293 nəfəri ali, 198 nəfəri isə orta ixtsas məktəblərinin tələbəsi adını qazanmışlar. Tələbə adını qazanmış məzunlardan 72 nəfəri 500-dən, 30 nəfəri isə 600-dan çox bal toplamağa müvəffəq olmuşlar.

Mübariz İbrahimov adına Məktəb-Lisey Kompleksinin məzunları bu il də öz ənənələrinə sadiq qalmışlar. Məktəb-Lisey Kompleksinin məzunu İmanov Fail Rahət oğlu 686 balla İqtisad Universitetinə daxil olmuş və Prezident təqaüdünə layiq görülmüşdür.

İcra hakimiyyətinin başçısı Mahir Quliyev çıxışının sonunda bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı proqram xarakterli çıxışı qarşımıza çox böyük məsuliyyət qoyur. Rayonumuzda da abadlıq, quruculuq işlərinin davam etdirilməsi, sosial infrastrukturun yenilənməsi, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi, Aqroparkların salınması, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin yaradılması əsas məsələlərimiz olacaqdır.

Hesabat iclasında Biləsuvar rayonu üzrə Maliyyə İdarəsinin rəisi Eldar Təhməzov, Bəydili kənd icra nümayəndəsi Adil Cəfərov, DSMF-nin Biləsuvar rayon şöbəsinin müdiri Fərasim Əliyev çıxış edərək fəaliyyət göstərdikləri sahələr üzrə görülmüş işlər barədə ətraflı məlumat verdilər və qarşıda duran vəzifələr müzakirə olundu.

**Ərəstun ABDULOV, "Respublika".**

# Qubadlı: rayon üzrə doqquz ayın nəticələri müzakirə olunub





**Qubadlı Rayon İcra Hakimiyyətinin inzibati binasında cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib. Yığıncaqda rayon icra hakimiyyəti başçısı aparatının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov yığıncaqda çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında verilmiş tapşırıqlardan danışıb, rayonun icra strukturlarının, idarə, müəssisə və təşkilatlarının da qarşısında bir sıra mühüm vəzifələrin olduğunu bildirib.

Sonra rayon icra hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Xoşqədəm Alıyevanın məruzəsi dinlənilib. Bildirilib ki, hesabat dövründə rayon üzrə 147 yeni iş yeri açılıb. Ümumiyyətlə, son 15 ildə rayon üzrə yeni yaradılan iş yerlərinin sayı 3852-yə çatıb. Doqquz ayda rayon Məşğulluq Mərkəzi tərəfindən sakinlərin məşğulluğunun artırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilib. Belə ki, cari ilin 9 ayı ərzində 443 vətəndaş mərkəzdə işaxtaran kimi qeydiyyata alınıb. Bunlardan 166 nəfər işlə təmin edilib, 73 nəfərə isə işsizlik statusu verilərək müavinət təyin olunub.

Qubadlıların məskunlaşma yerlərində yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilib. Rayon icra hakimiyyəti başçısının Sabirabad, Saatlı, İmişli rayonlarında və digər yerlərdə keçirdiyi səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli istiqamətində müəyyən işlər görülüb. Xızı rayon Sitalçay qəsəbəsində məcburi köçkünlərin yaşadıqları ərazidə yaranmış içməli su problemi aradan qaldırılıb, 3200 kvadratmetr yola asfalt örtüyü çəkilib. Bundan əlavə, Sumqayıt şəhəri BTZ bağları yaşayış massivində Çardaxlı kənd tam orta məktəbinə gedən 5200 kvadratmetr yola, 9-cu mikrorayonda 29 və 30 saylı binaların həyətinə 1500 kvadratmetr asfalt örtüyü vurulub. Betonzavod ərazisində piyada keçidi quraşdırılıb. Fərdi evlərin tikintisi üçün rayon icra hakimiyyətinin köməyi ilə 14 məcburi köçkün ailəsinə icazələr alınıb.

Hazırda məskunlaşma yerlərində işlər davam etdirilir. Belə ki, Xızı rayonunun Sitalçay qəsəbəsində məskunlaşan məcburi köçkünlər üçün suvarma kanalı, Sumqayıt şəhər "Yaşıl dərə" yaşayış massivində isə 3400 kvadratmetr asfalt örtüyü çəkilir. 47-ci məhəllədə bəzi evlərin dam örtüklərinin vurulması nəzərdə tutulur.

Bildirilib ki, doqquz ayda yerli gəlirlərin proqnoz məbləği 1 milyon 544 min 754 manat, yerli xərclər proqnozu isə 1 milyon 508 min 363 manat olub. Yerli gəlirlərdən daxil olma 1,2 dəfə çox, yerli xərclər isə 89,4 faiz icra edilib.

Cari ilin 9 ayında kənd təsərrüfatı sahəsində də müəyyən işlər görülüb. Rayonda baramaçılığı inkişaf etdirmək üçün Füzuli və Sabirabad ərazilərində əkilmiş 7 min 500 ədəd tut tinginə aqrotexniki qaydada qulluq edilib. Kümçülər 578 kiloqram yüksək keyfiyyətli barama istehsal edərək, respublika üzrə birinci olaraq planı artıqlaması ilə yerinə yetiriblər.

Rayon təhsilindən danışılarkən qeyd olunub ki, hesabat dövründə Qubadlı məktəblərini bitirən məzunlardan 390 nəfəri (85,5 faiz) ali məktəblərə sənəd verib, onlardan 285 nəfəri (73 faiz) tələbə adını qazanıb. Qəbul olunanlardan 48 nəfər 500-600, 27 nəfər 600-700 arası bal toplayıb. Bir məzun isə 695 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb.

Sonra Vergilər şöbəsinin rəisi Əhliman Qasımov, Rayon Rabitə Qovşağının rəisi Yusif Quliyev çıxış edib, görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açıblar.

Yığıncağa yekun vuran rayon icra hakimiyyətinin başçısı Malik İsaqov bildirib ki, qubadlılılar Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsinə səylə çalışacaqlar.

**AZƏRTAC**

# Qəbələ: Tərəqqinin ahəngdarlığı öz axarındadır





Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin məruzəsində qeyd olundu ki, 2018-ci ilin doqquz ayı Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur. Cari ilin doqquz ayı ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 165.887,0 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 39.787 min manat, yaxud 31,6 faiz artmışdır. Bu artım sənayedə 22.003,0 min manat, kənd təsərrüfatında 1.116,0 min manat, tikintidə 14.314,0 min manat, nəqliyyatda 95 min manat, rabitədə 67,0 min manat, ticarətdə 2.192,0 min manat olmuşdur. Əsas kapitala yönəlmiş investisiyanın həcmi 36.437,2 min manat, tikinti-quraşdırma işlərinin həcmi isə 35.305,1 min manat təşkil etmişdir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş vətəndaşlardan 269 nəfərin müraciəti araşdırılmış, onlardan 233 nəfərinin həyətyanı sahəsinə və biznes ideyasını reallaşdırması üçün malik olduğu digər resurslara baxış keçirilmişdir.

Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə müəyyənləşdirilən tədbirlər daim diqqət mərkəzində saxlanılmışdır. Doqquz ay ərzində bütün növ istehlakçı qruplar tərəfindən 90.349,6 min kilovat/saat elektrik enerjisi istehlak edilmiş, 7.571,9 min manat əvəzinə 6.851,0 min manat vəsait toplanaraq yığım planı 90,5 faiz yerinə yetirilmişdir.

Su-kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Heydər Əliyev prospektində, Nizami Gəncəvi, İmadəddin Nəsimi, İsmayıl bəy Qurtqaşenli, Məhəmməd Füzuli, Abbas Səhhət küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması və kənd təsərrüfatının suvarma suyu ilə təminatı məqsədilə suvarma kanalları 407 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 773 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 228 kubmetr qabion bəndi vurulmuş, 1204 kubmetr daş beton bəndi, 46 kubmetr bənd təmir edilmişdir.

Tikinti-abadlıq işlərinə də diqqət artırılmışdır. 2018-ci ilin doqquz ayı ərzində Qəbələ şəhərində 120 yerlik uşaq bağçası və körpələr evinin tikintisi, Heydər Əliyev prospekti 19 və 6 ünvanlarındakı ikimərtəbəli ictimai yaşayış binalarında, Zərifə Əliyeva adına parkda əsaslı təmir işləri başa çatdırılmışdır. Rayonun Laza kəndində 80 yerlik modul tipli ümumi orta və Zərgərli kəndində 56 yerlik modul tipli ibtidai məktəb binaları tikilib istifadəyə verilmiş, Bum qəsəbə və Zarağan kənd tam orta məktəblərinin dam örtüyü dəyişdirilmişdir. Qəbələ şəhərində 160 çarpayılıq rayon mərkəzi xəstəxana kompleksinin tikintisi davam etdirilmiş və 43 kilometrlik Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılmışdır. Nic-Mıxlıqovaq-Uludaş-Abrıx avtomobil yolunun yenidən qurulması işləri də başa çatmışdır.

2018-ci ilin doqquz ayı ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmış və bir çox beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirilmişdi. Fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri yarışları, iyun ayında rayonun Vəndam qəsəbəsi ərazisində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı, "Heydər Əliyev" Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici" VI Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilmişdir.

Doqquz ay Qəbələ Rayon Təhsil Şöbəsi üçün də uğurlu olmuşdur. Ümumtəhsil məktəblərinin müvəffəqiyyət faizi 99,9 faiz, keyfiyyət göstəricisi isə 66,9 faiz təşkil etmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Qəbələ X Beynəlxalq Musiqi Festivalı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikada keçirilən IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində ilin mart ayında ölkənin Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy rayonlarından gələn məktəblilər Qəbələ rayonu ilə ətraflı tanış edilmişlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı layihəsi çərçivəsində mərkəzdə keçirilmiş qanvermə aksiyasında 200 nəfərdən çox könüllü iştirak etmişdir.

Taxılçılıq rayon iqtisadiyyatının əsasını təşkil edir. 2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında 20100 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Hər hektarın orta məhsuldarlığı 32,5 sentner təşkil etmişdir. Torpaq sahibləri tərəfindən 2018-ci ildə sahələrdən 8215 ton kartof, 6 min ton tərəvəz istehsal edilmişdir. Rayon üçün meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 7800 hektar bağ sahələri, 621 hektar üzüm plantasiyaları mövcuddur. Fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonda əlavə olaraq 2 min hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə 1218 hektar, 2018-ci ilin yazında isə 120 hektar olmaqla cəmi 1338 hektar yeni fındıq bağları salınmış, bu ilin payızında əlavə olaraq 700 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur.

2018-ci ilin doqquz ayında vətəndaşların qəbuluna onlarla yerlərdə səyyar görüşlərin keçirilməsinə də xüsusi diqqət yetirilmişdir. Geniş tərkibli şura iclasında digər məsələlərdən də danışıldı, ilin uğurla başa vurulması üçün vəzifələr müəyyənləşdirildi.

**Rasim AMANOV, "Respublika".**

*Düşünməyə dəyər*

# Azərbaycan təhsilinin bəzi problemləri

**Elm, təhsil, mədəniyyət hər bir xalqın mənəvi sərvətləri hesab olunur. Elmsiz, təhsilsiz və mədəniyyətsiz bir xalqı yalnız Afrika cəngəlliklərində yaşayan tayfalarla müqayisə etmək mümkündür. Son zamanlar belə bir fikir yürüdülür ki, əgər ölkənin zəngin təbii sərvətləri varsa, ölkə iqtisadi cəhətcə inkişaf etmiş ölkə sayıla bilər. Bəs onda zəngin neft yataqlarına sahib olan Nigeriya dövləti nəyə görə çox acınacaqlı vəziyyətdədir? Doğrudur, bu fikirdə müəyyən bir məntiq vardır. Yəni təbii sərvətləri bol olan ölkədə əgər əldə edilmiş gəlirlərin bir hissəsinin elmin, təhsilin və mədəniyyətin inkişafına sərf olunarsa, onda demək olar ki, bu ölkəni əsl mənasında inkişaf etmiş bir ölkə kimi qiymətləndirmək olar.**

Böyük rus psixoloqu, akademik L.S.Viqotskinin bir fikrinə diqqət yetirək: "Estetik inkişafı olmayan ölkənin iqtisadi inkişafı qeyri-mümkündür!" Qabaqcıl, inkişaf etmiş kapitalist ölkələrində ona görə təhsilə, elmə, mədəniyyətə xüsusi diqqət verirlər ki, bugünün böyüməkdə olan gənc nəsli, sabah onların müəssisələrində fəhlə, mühəndis və s. kimi ixtisaslarda işləyəcəklər. Onların elmli, təhsilli, mədəniyyətli olmaları istehsal olunan məhsulun keyfiyyətinə, gözəlliyinə də müsbət təsir edəcək və bu sahibkarlar rəqabətli bazarlarda üstünlük qazanacaqlar. Diqqət yetirək: Yaponiya kimi bir ölkənin demək olar ki, heç bir təbii sərvətləri, hətta torpaqları belə yoxdur. Lakin bu ölkə yüksək texnologiyalar ölkəsi səviyyəsinə qalxa bilmişdir və dünyada ən varlı ölkələrdən sayılır. Onlar bu mərhələyə insan təfəkkürünü inkişaf etdirməklə, gözəllikləri sevdirməklə, yüksək təhsil almaları ilə qalxa bilmişlər. Korrupsiyanın, rüşvətin nə olduğunu bilməyən bu ölkənin hər bir vətəndaşı öz vətəninin inkişafı, qorunmaları üçün əllərindən gələni edirlər deyə, yapon xalqı həm də yüksək yaşayış səviyyəsinə qalxa bilmişdir. Bu ölkə iqtisadiyyatın bir çox sahələrində hətta Amerika Birləşmiş Ştatlarını da geridə qoymağı bacarmışdır. Yaxud, II Dünya müharibəsindən sonra xarabalığa çevrilmiş Almaniya ölkəsi, çox qısa müddətdə, məhz elmin, təhsilin və mədəniyyətin sayəsində qabaqcıl, iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş bir ölkə kimi yenidən ayağa qalxa bilmişdir. Əlbəttə, bu mənada digər faktorlar kimi elm, mədəniyyət, təhsilin xüsusi rolu qeyd olunmalıdır. Müstəqillik hər bir xalqın, ölkənin ən böyük nemətidir, arzusudur. Azərbaycan da bugünkü müstəqilliyimizi böyük mübarizə hesabına əldə edə bilmişdir. Lakin müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir. Bir çox ölkələrdən fərqli olaraq Azərbaycan Respublikasının zəngin yeraltı və yerüstü sərvətləri vardır. Uca Yaradan bu sərvətləri bizə onun üçün vermişdir ki, biz onlardan qənaətlə (Allah israfçıları sevmir!) istifadə etməklə ölkəmizi inkişaf etmiş bir səviyyəyə çatdıraq və xalqımızın güzəranını yaxşılaşdıraq, Vətənimizi qoruya bilək. Belə bir yüksək səviyyəyə ucalmağın yollarından biri də xalqın yüksək təhsilə malik olmasıdır. Artıq 27 ildir ki, xalqımız müstəqil bir ölkədə yaşayır və ulu öndərimiz Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyev bu müstəqilliyin qorunması üçün bütün imkanlardan istifadə etmişlər, bu proses indi də davam edir. Xalqımızın belə bir kəlamı vardır: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik!" Doğrudan da vəzifə o adama verilmədilir ki, həmin şəxsin rəhbərlik edəcəyi sahədən xəbəri olsun. Əks halda, vəzifə sahibi rəhbərlik edəcəyi sahəni, onun xüsusiyyətlərini bilmədiyindən, elə səhv addımlar ata bilər ki, bu yanlışlıqlar böyük faciələrə gətirib çıxarar. Bu mənada doğru və düzgün seçilmiş kadrların yerində olmasının çox böyük əhəmiyyəti vardır.

Azərbaycan təhsili uzun illər rus təhsil sisteminə əsaslanmış və bundan qidalanmışdır. Rus təhsil sistemi isə hələ bir neçə əsr bundan əvvəl Almaniya təhsil sistemindən bəhrələnmişdir. Bu çox gözəl, əhəmiyyətli, dəyərli bir sistemdir. Rus təhsil sisteminin yüksək səviyyədə mükəmməl olmasının nəticəsidir ki, kosmosa ilk insan göndərən ölkə keçmiş Sovetlər İttifaqı oldu. Məhz bu faktdan sonra Amerika Birləşmiş Ştatlarında təhsilin inkişafı üçün maliyyə vəsaiti qat-qat artırıldı, digər ölkələrdən savadlı və ağıllı alimlər bu ölkəyə dəvət olundular (yüksək məvaciblə). Bütün bu tədbirlər ABŞ-da elmin, təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafına səbəb oldu və bu ölkə Rusiyanı qeyd olunan sahələrdə çox-çox geridə qoya bildi. Məhz təhsilin, elmin, texnikanın, iqtisadiyyatın inkişafı nəticəsində 3 milyonluq kiçik İsrail ölkəsi 70 milyonluq ərəb ölkələri qarşısında özünü qoruya, müdafiə edə bilmişdir.

Bu gün Azərbaycan təhsilinin bir qolu keçmiş Sovetlər İttifaqının, digəri isə guya müasir Avropa təhsil sistemi üzərindədir. Təəssüflər olsun ki, biz 70 il ərzində Sovetlər İttifaqının tərkibində olduğumuz müddətdə bu sahədə qazandığımız "qızıl kərpicləri" qorumadıq və respublikamız üçün milli ənənələrimizə, xüsusiyyətlərimizə əsaslanan və inkişaf etmiş qabaqcıl dünya təhsil sistemlərinin standartlarına uyğun bir sistem yarada bilmədik. Bir el məsəli var: "Həm Əlidən, həm də Validən olduq". Bir faktı da yaddan çıxarmamalıyıq ki, Azərbaycanda Sovetlər dövründə olan təhsil sisteminin nəticəsi idi ki, xalqımızın akademiklərindən Yusif Məmmədəliyev, Həsən Abdullayev, Həsən Əliyev, Ramiz Rizayev, Azad Mirzəcanzadə, Eldar Salayev, Məcid Rəsulov, Xudu Məmmədov, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov, Cahangir Cahangirov, Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Toğrul Nərimanbəyov, Tahir Salahov və bu kimi böyük şəxsiyyətlər dünya səviyyəsində öz sözlərini deyə bilirdilər. Siyasət sahəsində ulu öndərimiz Heydər Əliyev də məhz keçmiş Sovet təhsili sistemində formalaşmışdı. Doğrudur deyirlər ki, "keçmişini unudanın gələcəyi top atəşinə tutular". Son on ildən bir qədər də artıq dövrdə respublikamızda orta ümumtəhsil məktəbləri üçün fənn kurikulumlarının standartlarının və onlara uyğun olaraq tədris olunan fənlər üçün nümunəvi dərsliklər, müəllimlərdən ötrü metodik vəsaitlər, həm də şagirdlər üçün iş dəftərlərinin yaradılması sahəsində uğurlu axtarışların nəticəsi olaraq böyük işlər görülmüşdür. Artıq I-XI siniflər üçün bu tədris vəsaitləri yaradılmış və məktəblərimizə göndərilmişdir. Qeyd etmək lazımdır ki, bu dərsliklər və digər vəsaitlər son 10 ildə vaxtaşırı bir daha təkmilləşdirilir ki, bunların da keyfiyyət baxımından çox böyük əhəmiyyəti vardır. Fənn kurikulumlarının müsbət cəhətlərindən birinin və ən vacibi odur ki, müəllim qarşısında il ərzində şagirdlərin hansı bilikləri mənimsəyəcəkləri, hansı bacarıq və vərdişlərə yiyələnəcəkləri bir vəzifə olaraq qarşıya qoyulur. Yəni müəllim kurikulum standartlarına uyğun şagirdlərə hansı bilikləri verəcəyindən, onlarda hansı bacarıq-vərdişləri yaradacağından əvvəlcədən xəbərdar olur. Burada əsas bir problem odur ki, müəllimin hazırlığı standartların tələblərinə uyğun gəlir, yoxsa yox?!

Məlumdur ki, məktəb müəllimi nə vaxtsa ali pedaqoji, orta pedaqoji təhsil almışdır və onlar Təhsil Nazirliyinin əmrləri əsasında təyin olunmuş xüsusi Dövlət Komissiyası qarşısında Dövlət imtahanları verdikdən sonra orta ümumtəhsil ocaqlarında dərs demək hüququ verən diploma sahib olmuşlar. Ona görə də bu müəllimləri təzədən məktəbdə dərs deməyə icazə verən imtahanların aparılmasına heç bir lüzum yoxdur. Heç bir dövlətdə belə imtahanlar keçirilmir. Digər tərəfdən məktəblərimizdə dərs deyən müəllimlərin diaqnostik imtahanlarının keçirilməsi hansı zərurətdən yaranmışdır? Bu müəllimlər arasında elmi dərəcəli, fəxri adlar (Əməkdar müəllim, Əməkdar artist, əməkdar rəssam, xalq artisti) və s. almış insanlar da vardır. Elmi dərəcəsi olanlara Prezident yanında Ali Attestasiya Komissiyası, fəxri adlar isə ölkə başçısının fərmanı ilə verilir. Bütün bunlardan sonra onları diaqnostik imtahanlara cəlb etmək nə dərəcədə doğrudur?

Əgər hörmətli Prezidentimiz bu şəxslərin səviyyələrinin, yaradıcılıqlarının, Ali Attestasiya Komissiyası isə elmi axtarışlarının nəticələrini nəzərə alaraq onlara fəxri adlar, elmi dərəcə və elmi adlar verirsə bu insanlara qarşı inamsızlıq hansı zərurətdən irəli gəlir?

Fikrimcə, belə insanlar bütün həyatları boyu "imtahanlar" verərək fəxri adlara, elmi dərəcələrə, elmi adlara yiyələnmişlər və hansı isə bir qurumun nə hüquqi, nə də mənəvi haqqı yoxdur ki, onları imtahanlara cəlb etsin.

İmtahanlarla əlaqədar hələ iki əsr bundan əvvəl həqiqətən olmuş bir hadisəni oxucularımızın və məmurlarımızın diqqətinə çatdırmaq istərdim. Napoleon Bonapartı gecə vaxtı qəflətən yuxudan oyadırlar. Hövlnak yerindən qalxan Napoleon həyəcanla soruşur ki, nə olub? Ona deyirlər ki, bəs rus ordusu hücuma keçib. Bunu eşidən fransız sərkərdəsi belə deyir: "Nə olsun ki, ruslar hücuma keçiblər? Mən də elə bildim ki, məni imtahana çəkirlər". Göründüyü kimi öz ordusu ilə hətta Moskvaya qədər gəlib çıxmış Bonopart Napoleon da imtahandan qorxurmuş.

Ona görə də, 150 minlik orta məktəb müəllimləri ordusunu imtahan sınağına çəkmək, onları stress halına salmaq nə dərəcədə düzgündür?!

İnsanları, xüsusilə də böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsilə məşğul olan müəllimləri "çörəklə sınağa çəkmək olmaz!"

Bir də ki, bir insan nə qədər imtahan verər? Ali məktəbə daxil olanda test imtahanları, semestr imtahanları, bakalavr pilləsini bitirdikdə imtahanlar, magistr səviyyəsini də bitirdikdə yenə də Təhsil Nazirliyinin göndərdiyi komissiyalar qarşısında imtahanlar. Hələ bunlar az imiş kimi, ali məktəbi bitirənləri məktəbdə işlə təmin etmək üçün yenə də nazirlik tərəfindən yaradılmış komissiya qarşısında imtahanlar. Adi orta məktəbdə müəllim işləmək üçün bu qədər imtahanlar lazımdırmı? Məncə, məktəblərə müəllim kadrların yerləşdirilməsinə Təhsil Nazirliyi deyil, yerli maarif orqanları məşğul olmalıdırlar. Bu cür lazımsız müəllim yoxlamalarının əvəzinə yaxşı olardı ki, hər il dərslər başlamazdan əvvəl, yaxud tədris ilinin sonunda bütün fənlər üzrə müəllimlərin təkmilləşdirilməsi ilə əlaqədar dövlət qurumlarında keyfiyyətli təkmilləşdirmə kursları təşkil edilsin və bu kursları müvəffəqiyyətlə bitirənlərə sertifikatlar verilsin. Müəllimi imtahanlarla sınağa çəkmək deyil, öyrətmək lazımdır! Yəni Azərbaycan təhsil sistemində hər bir dövlət qurumu öz işi ilə məşğul olmalı, öz funksiyalarını yüksək səviyyədə həyata keçirə bilməlidirlər.

Bir qədər də on ikillik təhsil haqqında. On ikillik təhsil bir sıra dövlətlərdə artıq uzun müddətdir ki, mövcuddur və Azərbaycan tam orta təhsil sistemində də belə olacağı çoxdan gözlənilirdi. Lakin hansı yaşdan on ikillik orta təhsil sisteminə keçmək lazımdır? Hamıya məlumdur ki, bir çox qabaqcıl Avropa və Asiya ölkələrində orta məktəblərə qəbul 5 yaşdan (hətta 4 yaşdan da) başlanır. Bu problemin həlli respublikamız üçün də çox vacibdir.

Bildiyimiz kimi, əgər məktəbə qəbul indiki kimi 6 yaşdan başlayacaqsa, onda on iki ildən sonra məktəblilərin artıq 18 yaşları olacaq və iyul ayında hörmətli Prezidentimizin fərmanına görə tam orta məktəbi bitirmiş oğlanlar hərbi qulluğa cəlb olunacaqlar. Belə çıxır ki, ali məktəblərə qəbul prosesində yalnız qızlar və hərbi qulluğa xəstəliklərinə görə yaramayan oğlanlar iştirak edəcəklər. Bu isə gender bərabərliyinin pozulması deməkdir. Hazırkı təhsil sistemində uşaqlar 6 yaşdan məktəbə qəbul edilir və 11 ildən sonra, yəni 17 yaşları olanda tam orta məktəbi bitirirlər. Belə olduqda, qızlar kimi oğlanlar da 17 yaşlarında ali məktəbə qəbul imtahanlarında iştirak edirlər və ali məktəblərə qəbul olmayanlara daha bir il də şans verilir ki, onlar sonrakı ildə də öz biliklərini, bacarıq və vərdişlərini sınaya bilsinlər. Bizcə, bunu nəzərə alaraq, on ikillik təhsil sisteminə keçidlə əlaqədar I siniflərə qəbul 6 yaşdan deyil, 5 yaşdan başlanmalıdır. Qeyd etmək istərdim ki, hələ Sovetlər dövründə Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda 5 yaşdan məktəbə qəbulla əlaqədar tədqiqatlar, eksperimentlər aparılmış və məlum olmuşdur ki, 5 yaşdan məktəbə qəbul olunan uşaqlar daha uğurla oxuyurlar və keçilmiş dərs materiallarını yaxşı mənimsəyirlər. Böyük rus psixoloqu, pedaqoqu, akademik L.Zankovun fikrincə "3-5 yaşlı uşaqlar linqivistika sahəsində dahi olurlar". Yəni hətta bağça tərbiyəsi görməyən uşaqlar heç bir müəllimdən istifadə etməyərək evdə valideynlərindən, küçədə həmyaşıdlarıla təmasda olmaları vasitələri ilə danışmağı öyrənirlər. Belə olduğu halda nəyə görə Böyük Allahın yaratdıqlarına verdiyi bu xüsusiyyətlərdən, keyfiyyətlərdən, professional təhsil sistemində istifadə etməyək?!

Məncə, 12 illik təhsil sistemində mövcud olan 11 illik təhsil sistemi müəyyən dəyişikliklərlə saxlanılmalı və ibtidai təhsil mərhələsinə "0" (sıfırıncı) sinif (beşyaşlılar) əlavə olunmalıdır. Belə olduqda ibtidai siniflər 5 illik ("0" və I - IV) siniflərdən, orta təhsil V - X siniflərdən, tam orta təhsil isə XI - XII siniflərdən ibarət olacaqdır. Yəni, həm 12 illik təhsil sistemi yaranacaq, həm uşaqlara Böyük Tanrı tərəfindən verilmiş qabiliyyətdən düzgün istifadə ediləcək, eyni zamanda gender bərabərliyinə riayət olunacaqdır.

İndi də ali təhsil ocaqları haqqında.

Bu yaxınlarda mən Milli Məclis deputatlarından birinin ali məktəblərlə əlaqədar fikrini dinlədim. O deyirdi ki, Azərbaycanda bu qədər universitetlər lazımdırmı? Doğrudan da 10 milyona yaxın əhalisi olan bir respublikada bu qədər universitetlər, institutlar lazımdırmı? Qeyd etmək istərdim ki, bu ali təhsil ocaqlarının əksəriyyəti məzmunca bir-birini təkrarlayırlar. Mən ali təhsil ocağı dedikdə Bakı Neft Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan İqtisad Universiteti və s. kimi təhsil ocaqlarını alqışlayıram.

Lakin dövlətə məxsus hərəsində 200 - 300 tələbə olan və profilcə bir-birinə yaxın ali təhsil ocaqları dövlət üçün bir yük deyilmi? Məgər profilcə bir-birini döyən ali təhsil ocaqlarını birləşdirərək böyük təhsil müəssisələrini yaratmaq olmazmı?

Digər tərəfdən, dövlətə tabe olan kiçik ali təhsil ocaqlarını özəlləşdirməklə dövlət xeyli miqdarda qənaət edə bilər. Bu gün "Bakı Qızlar Universiteti" adlanan və həm də Azərbaycandan kənarlarda da tanınan bir təhsil müəssisəsi artıq öz hesabına çox yaxşı fəaliyyət göstərir.

Bu gün Təhsil Nazirliyi sistemində artıq dünya miqyasında tanınmış Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Milli Konservatoriya, Bakı Rəssamlıq Akademiyası fəaliyyət göstərir. Bakı Xoreoqrafiya Akademiyası isə respublika Mədəniyyət Nazirliyinin tabeliyindədir. Digər tərəfdən çoxlu sayda musiqi, təsviri incəsənət kollecləri də Təhsil Nazirliyinin tabeliyindədir. Lakin Təhsil Nazirliyində bu tədris ocaqlarına rəhbərlik edən hətta bircə nəfər mütəxəssis belə yoxdur və həmin qurumlar demək olar ki, nəzarətsiz qalmışlar. Belə çıxır ki, Təhsil Nazirliyi Mədəniyyət Nazirliyi üçün kadrlar hazırlayır?! Halbuki bu problemi Mədəniyyət Nazirliyi daha yaxşı həll edə bilər. Olmazmı ki, adları qeyd olunan incəsənət profilli təhsil ocaqlarının hamısı Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin? Onda Mədəniyyət Nazirliyi özü biləcəkdir ki, ona hansı profildə və nə qədər mütəxəssis lazımdır. Məncə, düşünərək hərəkət etməyə dəyər. Azərbaycan xalqı tarixən, zəngin mədəniyyətə, elmə, təhsi mənəviyyata malik olan bir xalqdır. Bu xalq bütün bəşəriyyətin tanıdığı Nizami, Füzuli, Nəsimi, N.Tusi və s. kimi böyük şəxsiyyətlər yetişdirmişdir. Ona görə də, biz imkan verməməliyik ki, belə dahiləri olan xalqımızın mədəniyyəti, elmi, təhsili aşağı səviyyədə olsun. Əksinə, Böyük Tanrı xalqımıza bu yeraltı və yerüstü sərvətləri ona görə vermişdir ki, onlardan səmərəli və qənaətlə istifadə etməklə xalqımızın mədəni, elmi, təhsil səviyyəsini, mənəviyyatını yüksəklərə qaldıraq. Bu, həm də paralel olaraq iqtisadiyyatımızın, hərbi gücümüzün inkişafına güclü təkan verən bir faktordur. Mədəniyyəti, elmi, təhsili, iqtisadiyyatı güclü olan bir ölkəyə heç bir qüvvə qalib gələ bilməz.

Bu gün xalqımız artıq 2003-cü ildən respublikamıza rəhbərlik edən Prezident İlham Əliyevin ətrafında sıx birləşməli, müstəqilliyimizin qorunmasını, dövlətçiliyimizin möhkəmlənməsində ona öz köməkliyimizi göstərməliyik.

**Oqtay RƏCƏBOV,**
**bəstəkar, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim, Prezidentin fərdi təqaüdçüsü.**

# Gəncə: səyyar və fərdi qəbullar sakinləri razı salır




Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun növbəti qəbulu keçirilmişdir. Budəfəki görüşdə Prezident Administrasiyasının Ərazi Təşkilat Şöbəsinin sektor müdiri Vəfadar Bağırov da iştirak edirdi. Qəbulda 80-ə yaxın sakinin müraciəti dinlənildi. Heydər Əliyev prospekti, 103 ünvanında baş tutan görüşdə Gəncənin müxtəlif ərazilərindən gələn sakinlərin şikayət və təklifləri olduqca həssaslıqla dinlənildi. Ara küçələrin asfaltlanması, bəzi istiqamətlər üzrə işləyən avtobusların marşrut xətlərinin uzadılması, küçələrin gecə işıqlanmasının yaxşılaşdırılması, işlə təminat, ticarət və fərdi yaşayış evlərinin təmiri, inşası üçün torpaq sahəsi ayrılması, bəzi ərazilərdə əhalinin su təminatının yaxşılaşdırılması kimi məsələlər müraciətlərin əsasını təşkil edirdi. Məlumat üçün bildirildi ki, Gəncənin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi yekunlaşmaq üzrədir. Küçələrdə asfalt örtüyünün yenilənməsinə isə artıq başlanılmışdır. Buna paralel olaraq həmin küçələrin gecə işıqlanması da yenidən qurulacaq. İşlə bağlı müraciət edən vətəndaşlar müvafiq olaraq Gəncə şəhər Kəpəz və Nizami rayon Məşğulluq mərkəzlərinə yönləndirilmişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov səsləndirilən digər məsələlərin qanunvericiliyə uyğun həll olunması istiqamətində müvafiq tapşırıqlar verdi.

* * *

Növbəti səyyari qəbulda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Cavad xan qəsəbəsinin sakinlərinin də şikayət və təkliflərini dinlədi. Görüşdə 30-dan artıq müraciətə baxıldı. Şəhər rəhbərinə məlumat verildi ki, Cavad xan Gəncənin son illərdə salınan və sürətlə böyüyən qəsəbələrindən biridir. Hazırda burada 10 mindən artıq sakin yaşayır. Narahatlıq doğuran məsələlərdən ən önəmliləri qəsəbənin ərazisində məktəb binasının olmaması, artezian quyularının azlığı, yeni salınan küçələrə adların verilməməsidir. Həmçinin, yaxınlıqda ödəmə terminallarının, ATM-lərin, ən əsası isə aptekin olmaması sakinlər üçün çətinlik yaradır. Sakinlərin dilə gətirdikləri məsələlər qeydiyyata alınıb və onların tez bir zamanda həll edilməsi üçün müvafiq tapşırıqlar verildi. Cavad xan qəsəbəsinin su problemi həll olunacaq. Ərazidə məktəb binasının inşası müvafiq Dövlət Proqramına salınıb. Yeni küçələrə adların verilməsi məsələsinə gəldikdə isə bildirilib ki, hazırda ünvan lövhələrinin hazırlanması istiqamətində iş aparılır. Qəbulda qəsəbənin ümumi problemləri ilə yanaşı, sakinlərin fərdi şikayətləri də dinlənildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Qazaxda hərbi xidmətdən tərxis olunan gənclərlə görüş



Qazax rayonunda ölkə Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında imzaladığı 4 sentyabr 2018-ci il tarixli Sərəncamına əsasən hərbi xidmətdən tərxis olunan gənclərlə görüş keçirilib.

Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və aparatın məsul işçiləri, Gənclər və İdman İdarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin məsul əməkdaşları, tərxis olunmuş gənclər və KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül-çiçək dəstələri qoyaraq, onun əziz xatirəsini ehtiramla yad etdilər. Tədbirdə torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canından keçən şəhidlərimizin əziz xatirələri də anılıb. Bu məqsədlə tədbir iştirakçıları şəhərin mərkəzində yerləşən Şəhidlər Xiyabanını ziyarət ediblər.

Sonra tədbir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsində davam etdirilib. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq hərbi xidmətdən tərxis olunan gəncləri təbrik edib. Milli Ordu sıralarında xidmət edən qazaxlı gənclərin Vətən qarşısında borclarını layiqətlə yerinə yetirdiklərini bildirən icra başçısı rayonda xidmətdən qayıdan gənclərlə bağlı ilk dəfə olaraq belə bir tədbirin keçirildiyini qeyd edib. İstər gənclərin hərbi xidmətə yolasalma mərasimlərinin keçirilməsini, istərsə də qarşılanma tədbirlərinin təşkil olunmasını yüksək qiymətləndirib. Rayon rəhbəri bildirib ki, bu gün 25 il əvvələ nəzər salsaq, görərik ki, müstəqil Azərbaycan və onun Milli Ordusu gündən-günə inkişaf edir.

İcra başçısı Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində işğal altında olan torpaqlarımızın azad ediləcəyi günün elə də uzaqda olmadığını bildirdi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, mayor Mehman Rəhimov çıxış edərək hərbi xidmətdən tərxis olunan gəncləri Vətən qarşısındakı müqəddəs borclarını layiqincə yerinə yetirdiklərinə görə təbrik edib. BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev çıxış edərək hərbi xidmətin mübarizlik, mərdlik məktəbi olduğunu qeyd edib. Bu məktəbi üzüağ, alnıaçıq şəkildə başa vuran gəncləri təbrik edən natiq son illər müstəqil Azərbaycanın çiçəklənməsi naminə şanlı ordumuzun qazandığı qələbələrdən söz açıb. Ölkəmizdə Milli Ordu quruculuğu siyasətinin təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Həmin siyasətin bu gün ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb.

Sonda hərbi xidmətdən tərxis olunan gənclərə hərbi biletlər və qiymətli hədiyyələr təqdim olunub.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Dövlət Neft Fondu: doqquz ayın göstəriciləri

**2018-ci ilin yanvar-sentyabr ayları ərzində ARDNF-in büdcə gəlirləri 14 437,2 milyon manat, büdcə xərcləri isə 8 005,9 milyon manat təşkil etmişdir, - bu barədə fonddan verilən məlumatda bildirilir.**

Göstərilən müddətdə ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi nəticəsində əldə olunan gəlirlərin miqdarı 13 441,6 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 12 658,1 milyon manat, bonus ödənişləri 765,2 milyon manat, akrhesabı ödənişləri 4,1 milyon manat, tranzit gəlirləri 14,2 milyon manat təşkil etmişdir. Hesabat dövrü ərzində fondun vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər 995,6 milyon manata bərabər olmuşdur.

Cari ilin büdcəsinin icrası çərçivəsində 7 788,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 138,6 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 41,7 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 16,7 milyon manat vəsait ayrılmışdır. 5,0 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. Doqquz ay ərzində fondun idarə edilməsi ilə bağlı xərclər 15,9 milyon manat məbləğində olmuşdur.

Valyuta məzənnələrinin dəyişməsi nəticəsində yaranan fərqlə əlaqədar ARDNF-in büdcədənkənar xərci 968,7 milyon manat təşkil etmişdir.

2018-ci il oktyabrın 1-nə ARDNF-in aktivləri ilin əvvəlinə (35 806,5 milyon ABŞ dolları) nisbətən 8,88% artaraq 38 987,7 milyon ABŞ dollarına bərabər olmuşdur. Aktivlərin artımı fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olmuşdur.



Dövlət Neft Fondundan verilən digər məlumatda bildirilir ki, oktyabr ayının 1-nə olan vəziyyətə görə, fondun investisiya portfeli onun aktivlərinin demək olar ki, 100%-i qədər və ya 38 975,08 mln. ABŞ dolları təşkil edib. Bu vəsaitin 50%-i dollarda, 33,4%-i avroda, 4,9%-i isə ingilis funt sterlinqində yerləşdirilib. Başqa sözlə, üç əsas xarici valyutanın investisiya portfelində payı 88,9%təşkil edib. Digər valyutalara gəlincə isə, portfeldə Avstraliya dolları 0,6%, Türkiyə lirəsi 0,7%, Rusiya rublu 0,8%, Koreya vonu 0,5%, Çin yuanı 1,2%, Yaponiya yeni 1,5%, digər valyutalar 1,5%, qızıl isə 4,3% paya malikdir.

ARDNF investisiya portfelinin xarici valyutalar və qiymətli metallar üzrə bölgüsü ilə yanaşı, müxtəlif aktivlər üzrə bölgüsünü də açıqlayıb. Beləliklə, fondun investisiya portfelində istiqrazların və pul bazarı alətlərinin payı 76,4%, səhmlərin payı 14%, daşınmaz əmlakın payı 5,3%, qızılın payı isə yuxarıda deyildiyi kimi, 4,3% təşkil edib.

Qeyd edək ki, ilin əvvəlindən Dövlət Neft Fondunun aktivləri 9%-ə yaxın artıb.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# "Yubileylər silsiləsi" layihəsi davam edir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımovun 75 illik yubileyinə həsr olunmuş virtual fotoalbom hazırlanıb.

Virtual fotoalbomda tanınmış kinorejissorun fotoları, həyat və yaradıcılığı əks olunub. Burada Oqtay Mirqasımovun müxtəlif Beynəlxalq festivallarda mükafatlar qazanmış filmlərindən fotolar, ssenari müəllifi, quruluşçu rejissoru olduğu bədii və sənədli filmlər və həmin filmlərdə çəkilmiş aktyorların fotoları da toplanmışdır.

Fotoalbomda Xalq artisti Oqtay Mirqasımovun kino tarixində göstərdiyi xidmətlər və onun mükafatları da əks olunub.

Virtual fotoalbomda yubilyarın kino haqqında maraqlı fikirləri qeyd olunmuşdur. Burada tanınmış mədəniyyət xadimlərinin Oqtay Mirqasımov haqqında



söylədikləri fikirlər də maraq doğurur.

Kinorejissorun atası AMEA-nın ilk prezidenti, tibb elmləri doktoru Mir Əsədulla Mirqasımov, qardaşları Xalq rəssamı, görkəmli heykəltaraş Mirələsgər Mirqasımov və AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Rüfət Mirqasımovun, onun qızı aktrisa Ayan Mirqasımovanın fotoları da toplanmışdır.

Topluda kinorejissorun çəkdiyi bir neçə filmdən kollaj hazırlanmışdır. Fotoalbom "Cin mikrorayonda" filmindən Xalq artisti Mübariz Tağıyevin ifası ilə müşayiət olunur.

Xatırladırıq ki, "Yubileylər silsiləsi" layihəsi davamlıdır. Layihənin rəhbəri Yasamal rayon MKS-nin direktoru, tarix üzrə fəlsəfə doktoru, UNESCO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsinin sədri Lətifə Məmmədova, koordinatoru Təranə Heydərovadır.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Xarici casus həbs edildi - Dövlət Təhlükəsizliyi Xidmətindən əməliyyat

**Xarici ölkə vətəndaşı Hasanzada Bahram Nusrat oğlunun xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə qarşı casusluq, dövlət sirrinin ələ keçirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının casusluğa cəlb edilməsi istiqamətində cinayət əməllərinə dair əldə edilən məlumatlar yoxlanılaraq təsdiqini tapıb.**

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, DTX və Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Bahram Hasanzada dövlət sərhədini qanunsuz keçərək ölkə ərazisinə daxil olarkən saxlanılıb. O, Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) və 318.1-ci (dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Həmçinin müəyyən edilib ki, xarici ölkə vətəndaşı Bahram Hasanzada xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan silahlı qüvvələrində xidmət edən hərbi qulluqçular, ölkə ərazisində yerləşən hərbi-strateji obyektlər, hərbi texnika və silah-sursat, xarici ölkələrlə hərbi sahədə əlaqələr, eləcə də Azərbaycanın dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti ilə bağlı sair kəşfiyyat məlumatlarını toplayıb, bu məqsədlə uzunmüddətli münasibət qurduğu Azərbaycan Respublikası vətəndaşlarının maddi maraq müqabilində xarici xüsusi xidmət orqanı əməkdaşlarının əlaqəsinə cəlb edilməsini təşkil edib.

Hazırda araşdırmalar davam edir.

**AZƏRTAC**

## BİLDİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən PE100 yuksək sıxlıqlı 300 ton polietilen dənəciklərinin alınması ilə əlaqədar satınalmalar məqsədilə iddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri 17 noyabr 2018-ci il tarixi 22 noyabr 2018-ci il kimi oxunmalıdır.

**Tender Komissiyası.**

Ağdam Rayon Mərkəzi Xəstəxanası Cari təmir işlərinin, Avadanlıqların, İnventarların, yumşaq inventarların, digər maşın və avadanlıqların, Kommunal və kommunikasiya xidmətlərinin və Ehtiyat hissələrinin satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir. Sənədlərin qəbulu 23.10.2018-ci il saat 12:00-a qədər aparılır.

Ağdam Rayon İcra Hakimiyyəti Cari təmir işlərinin, Avadanlıqların, İnventarların, digər alışlar və xidmətlərin və əsaslı təmir işlərinin satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir. Sənədlərin qəbulu 23.10.2018-ci il saat 12:00-a qədər aparılır.

"Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların satın alınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 4 (dörd) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. Müxtəlif növ paylayıcı panellərin satınalınması

LOT-2. Müxtəlif növ qaynaq çubuqlarının satın alınması

LOT-3. Müxtəlif növ nasosların satın alınması

LOT-4. Müxtəlif növ alətlərin satın alınması

İştirak haqqı - LOT-1 - 100 manat
LOT-2 - 150 manat
LOT-3 - 100 manat
LOT-4 - 300 manat
Hesab:
AZ98AZRT38050019440010268002
VÖEN1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H:
AZ02NABZ01350100000000022944
S.W.İ.F.T: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 dekabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına, "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 dekabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

## AĞDAM RAYON İCRA HAKİMİYYƏTİ

## AÇIQ TENDER ELAN EDİR

**Lot 1** - Abadlıq işlərinin satınalınması.

**Lot 2** - Sair xərclərin satınalınması.

**Lot 3** - Mənzil fondunun əsaslı təmiri işlərinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi vasitəsilə həyata keçiriləcəkdir.

**İştirak haqqı hər lot üzrə 50 manat**

Tenderdə iştirak etmək istəyənlər hər bir lot üzrə aşağıdakı iştirak haqqını aşağıda göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Ağdam rayonu, Quzanlı qəsəbəsi ünvanında yerləşən Ağdam Rayon İcra Hakimiyyətindən (Əlaqələndirici şəxs: Memarlıq və tikinti şöbəsi, telefon: (026) 325-02-93) ala bilərlər.

*Təşkilat: Ağdam Rayon İcra Hakimiyyəti.*

*Hesab:*
*AZ81AİİB32051019448600201186*
*VÖEN: 3200025931*
*Bank: Kapital Bank Ağdam filialı*
*Kodu: 200866*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01355010000000001944*
*SWİFT BİK AİİBAZ2X*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Müəssisənin nizamnaməsi;*
- *Vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *İştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatının surəti;*
- *Bank arayışı, rekvizitlərlə birlikdə;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

Tenderdə təklif təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi qiymətinin bir faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 23 noyabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti 03 dekabr 2018-ci il saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 04 dekabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## AĞDAM RAYON MƏRKƏZİ XƏSTƏXANASI

## AÇIQ TENDER ELAN EDİR

**Lot 1** - Əsaslı təmir işlərinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi vasitəsilə həyata keçiriləcəkdir.

**İştirak haqqı lot 1 üzrə 60 manat**

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı iştirak haqqını aşağıda göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Ağdam rayonu, Quzanlı qəsəbəsi ünvanında yerləşən Ağdam Rayon Mərkəzi Xəstəxanasından (Əlaqələndirici şəxs: Məmmədov Elburus İyas oğlu, telefon: (026) 325-06-42) ala bilərlər.

*Təşkilat: Ağdam Rayon Mərkəzi Xəstəxanası.*

*Hesab:*
*AZ81AİİB32051019448600201186*
*VÖEN: 3200025931*
*Bank: Kapital Bank Ağdam filialı*
*Kodu: 200866*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01355010000000001944*
*SWİFT BİK AİİBAZ2X*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Müəssisənin nizamnaməsi;*
- *Vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *İştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatının surəti;*
- *Bank arayışı, rekvizitlərlə birlikdə;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

Tenderdə təklif təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi qiymətinin bir faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 23 noyabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti 03 dekabr 2018-ci il saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 04 dekabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.

Lot 1, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 1 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 2, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 2 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 3, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 3 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 250 (iki yüz əlli) manat;

Lot 4, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 4 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 5, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 5 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 6, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 37 mənzilli 6 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 7, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 7 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 8, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 8 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 9, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 9 №-li yaşayış binasının tikintisi"

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 10, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 10 №-li yaşayış binasının tikintisi";

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 11, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 11 №-li yaşayış binasının tikintisi";

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 12, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 12 №-li yaşayış binasının tikintisi";

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 13, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 9 mərtəbəli 54 mənzilli 13 №-li yaşayış binasının tikintisi";

İştirak haqqı: 200 (iki yüz) manat;

Lot 14, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 540 şagird yerlik məktəbin tikintisi";

İştirak haqqı: 180 (yüz səksən) manat;

Lot 15, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 140 yerlik uşaq baxçasının tikintisi";

İştirak haqqı: 150 (yüz əlli) manat;

Lot 16, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində klub-icma mərkəzinin, inzibati binanın və tibb məntəqəsinin tikintisi";

İştirak haqqı: 150 (yüz əlli) manat;

Lot 17, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində abadlıq işləri və yol-küçə şəbəkəsinin tikintisi";

İştirak haqqı: 180 (yüz səksən) manat;

Lot 18, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində xarici və sahədaxili elektrik təchizatı şəbəkəsinin tikintisi";

İştirak haqqı: 250 (iki yüz əlli) manat;

Lot 19, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində su təchizatı, kanalizasiya şəbəkəsi və suvarma sisteminin tikintisi";

İştirak haqqı: 150 (yüz əlli) manat;

Lot 20, "Şirvan şəhəri ərazisində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində qazanxananın, istilik və qaz təchizatı şəbəkəsinin tikintisi";

İştirak haqqı: 150 (yüz əlli) manat;

Lot 21, "Şirvan şəhərində 685 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində ATS binasının və rabitə şəbəkəsinin tikintisi";

İştirak haqqı: 100 (yüz) manat;

MKSİF yuxarıda göstərilən tikinti işləri üzrə iştirak hüququ olan iddiaçıları möhürlənmiş zərflərdə tender təklifləri təqdim etməyə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş,imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər yuxarıda göstərilən məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*

*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi:*
*AZ29CTRE00000000000005728225*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T. : CTRE AZ 22*

*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 2%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *tender iştirakçılarının (iddiaçıların) son 3 (üç) ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
- *iddiaçının müvafiq tikinti işlərinin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
- *iddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
- *iddiaçının ixtisas göstəriciləri haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyası istisna olmaqla) 16 noyabr 2018-ci il saat 18.00-a qədər, tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 30 noyabr 2018-ci il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### D.TRAMP: ABŞ ÜÇÜN SƏUDİYYƏ ƏRƏBİSTANI ƏHƏMİYYƏT KƏSB EDİR



Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Tramp "Fox TV" telekanalına müsahibəsi zamanı İstanbuldakı Səudiyyə Ərəbistanı Baş Konsulluğuna daxil olduqdan sonra yoxa çıxan jurnalist Camal Kaşıkçı və ABŞ-Səudiyyə Ərəbistanı əlaqələri ilə bağlı açıqlama verib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Donald Tramp ABŞ-ın "Yaxın Şərq" layihəsində Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd Bin Salmanın əhəmiyyətini vurğulayaraq, "Səudiyyə Ərəbistanına ehtiyacımız var" ifadəsini işlədib.

Eyni zamanda, ABŞ prezidenti Camal Kaşıkçı hadisəsindən sonra "Səudiyyə Ərəbistanına silah satışının dayandırılması" çağırışını edən bəzi Konqres üzvlərinin ciddi təzyiqlərinə baxmayaraq rəsmi Ər-Riyada silah satışını dayandırmağı düşünmədiyini dilə gətirib.

Məlumata görə, Donald Tramp Səudiyyə Ərəbistanına edilən 115 milyard dollarlıq silah satışının Amerika xalqına 500 min yeni iş yeri açmağa imkan yaradacağını vurğulayıb.

Camal Kaşıkçı hadisənin şahzadə Salmanın xəbəri olmadan baş verdiyinə ümid etdiyini bildirən Tramp deyib: "Mənim gözümdə bu mühüm bir faktordur".

Xatırladaq ki, oktyabrın 2-də "The Washington Post" qəzetinin müxbiri Camal Kaşıkçı Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunun binasına daxil olduqdan sonra onunla əlaqə yaratmaq mümkün olmayıb.

### TÜRKİYƏDƏ YOL HƏRƏKƏTİ QAYDALARI SƏRTLƏŞDİRİLDİ




Türkiyədə yol hərəkəti qaydaları sərtləşdirilib. "Trend" agentliyinin məlumatına görə, bu barədə "Resmi Gazete" nəşrində dərc olunan qərarda qeyd olunur.

Verilən xəbərə görə, bugünlərdə ölkə parlamenti yol hərəkəti qaydalarının sərtləşdirilməsini nəzərdə tutan qaydaları təsdiq edib.

Yeni qaydalara əsasən, işıqforun qızmızı işığında yolu keçən sürücü bu əməli birinci dəfə törətdikdə 30 gün, ikinci qanun pozuntusuna görə 45 gün, üçüncu dəfə təkrar edərsə, 60 gün sürücülük hüququndan məhrum ediləcək.

Eyni zamanda, bildirilir ki, sürət həddi müəyyən olunmuş yollarda sürət həddini 10-30 km/saat aşmaya görə 235, 30-50 km/s-488, 50 km/s-dan yuxarı isə 1002 lirə cərimə tətbiq olunacaq.

Bundan başqa, əgər sürücü il ərzində beş dəfədən çox sürət həddinin aşılmasına görə cərimə olunarsa, onun avtomobili idarə etməsinə bir il qadağa qoyulacaq.

Bununla yanaşı, verilən xəbərə əsasən "drift" hərəkətlərinə görə də cəzalar artırılıb. Belə ki, "drift"ə yol verən sürücünün avtomobili 60 gün müddətində cərimə meydançasında saxlanacaq, sürücü isə 5000 lirə cərimə olunacaq. Eyni əməl təkrar edilərsə, sürücülük vəsiqəsi birdəfəlik ləğv ediləcək.

Həmçinin qeyd olunur ki, piyadalara yol verməyən sürücülər 235 lirə cərimə olunacaqlar. Bundan əvvəl həmin cəza 108 lirə təşkil edirdi. Məktəblərin yaxınlığında piyadalara yol verməyən sürücülər isə 488 lirə cərimə olunacaqlar.

### İNSAN ÖMRÜ 20 İLDƏN SONRA DAHA UZUN OLACAQ



ABŞ-ın Vaşinqton Universitetinin ekspertləri 2040-cı il üçün insan ömrünün müddətini proqnozlaşdırıblar. "Sputnik" informasiya agentliyinin məlumatına görə, proqnoza əsasən qadın və kişilərin ömrü orta hesabla 4,4 il artacaq.

Verilən xəbərə görə, sözügedən araşdırma 195 ölkəni əhatə edib. Alimlər bu ölkələrdə ölüm səbəblərini və səhiyyə sisteminin vəziyyətini araşdırıblar. Proqnoza təmiz su, sanitar şərait, siqaret çəkən və artıq çəkidən əziyyət çəkən insanların sayı, orta təhsil səviyyəsi və gəlirlərin miqdarı da təsir edib.

Eyni zamanda, proqnoza görə, ən çox uzunömürlülük İspaniyada 85,8 il, ikinci yerdə Yaponiya 85,7 il, üçüncü yerdə isə Sinqapur 85,4 illə qərarlaşıb.

Uzunömürlülüyün yüksək səviyyədə olduğu ölkələrin onluğuna İsveçrə (85,2), Portuqaliya və İtaliya (84,5), İsrail (84,4), Fransa (84,3), Lüksemburq və Avstraliya (84,1) daxil olub.

Həmçinin bildirilir ki, 2040-cı ildə 59 ölkədə insan ömrü 80 ildən çox olacaq.

Bununla yanaşı, proqnozda qeyd olunur ki, ən qısa ömür Lesotoda (Cənubi Afrika) - 57,3 il, Mərkəzi Afrika Respublikasında - 58,4 il, Zimbabvedə - 61,3 il, Somalidə - 63,6 il və Svazilenddə -65,1 il müşahidə ediləcək.

Proqnozda həmçinin vurğulanır ki, 2040-cı ildə insanlar daha çox ürəyin işemik xəstəliklərindən, insult, nəfəs yollarının infeksiyası, böyrəklərin xroniki xəstəliyindən, altsheymerdən, şəkərdən və avtomobil qəzalarından öləcəklər.

### BƏŞƏR ƏSƏD REJİMİ İŞİD-lə ƏMƏKDAŞLIQ EDİR?



Suriya İnsan Haqları Şəbəkəsi (SNHR) ölkənin cənubunda Bəşər Əsəd rejiminin nəzarətindəki Süveyda şəhər mərkəzində iyulun 25-də İŞİD terrorçuları tərəfindən təşkil olunan və azı 150 insanın həlak olduğu hücumla bağlı hesabat yayıb. Bu barədə "TRT" telekanalı xəbər verib.

Hesabatda terror hücumu zamanı yaxınlarını itirən bəzi şəxslərin ifadələrinə müraciət edilib və rejim qüvvələrinin bu hücumlarda İŞİD-ə şərait yaratdığına dair məlumatlar öz əksini tapıb.

Eyni zamanda, hesabatda may ayında Bəşər Əsəd rejimi və İŞİD arasında əldə olunan razılaşmaya əsasən 1200 terrorçunun paytaxt Dəməşqdəki "Yermuk" şəhərciyindən Süveydanın şərqindəki səhra bölgəsinə keçdiyi xatırladılıb. Həmçinin rejim qüvvələrinin iyun ayında İŞİD üzvlərinin keçdiyi bölgədəki hərbi nöqtələri boşaltdığı, beləliklə, keçidə şərait yaratdığı da qeyd olunub.

Suriya İnsan Haqları Şəbəkəsinin hesabatında deyilir: "Rejim qüvvələri hücumlardan üç gün əvvəl Süveyda şəhərində silahlı döyüşçülərə verilən silahları geri alıb. Lakin bəzi kəndlərdəki döyüşçülər silahlarını təhvil verməkdən imtina ediblər. Daha sonra aydın olub ki, İŞİD terrorçuları sadəcə silahlarını təslim edən kəndlərə basqın ediblər".

Hesabatda həmçinin daha öncə də Bəşər Əsəd rejimi ilə İŞİD-in Həma və İdlib şəhərlərində əməkdaşlığına işarə edilərək bildirilir: "Süveyda şəhərində baş verən çirkin hüquq pozuntuları İŞİD terror təşkilatı ilə Suriya rejimi arasında koordinasiya və əməkdaşlığı bir daha sübut etdi. Baş verənlərə görə hər iki tərəf cavabdehdir".

Suriya İnsan Haqları Şəbəkəsinin hesabatında İŞİD-in Süveyda şəhərinə hücumları zamanı silahlarını təslim edən 8 kəndə basqın təşkil edərək, aralarında qadın və uşaqların olduğu 29 nəfəri qaçırdığı bildirilir.

### ROMA PAPASI KXDR-ə SƏFƏR ETMƏK İSTƏYİR



Roma Papası Fransisk 2019-cu ilin yazında Koreya Xalq Demokrtaik Respublikasına (KXDR) səfər etmək niyyətindədir. "Trend"in məlumatına görə, bu barədə "Yonhap" agentliyinə Cənubi Koreyanın hakim Demokratik partiyasının rəhbəri Li He-Çan bildirib.

Agentliyin məlumatında deyilir: "Li He-Çan bildirib ki, onda olan məlumata görə, Roma Papası gələn ilin yazında Şimali Koreyaya səfər etmək niyyətindədir".

Qeyd edək ki, Cəbuni Koreya prezidenti Mun Ce İn 12-21 oktyabr tarixlərində Avropa ölkələrinə, o cümlədən Fransa, İtaliya, Vatikan, Belçika və Danimarkaya səfər edəcək. Prezident administrasiyasının məlumatına əsasən, Mun Ce İn Vatikana səfəri zamanı Roma Papasına KXDR lideri Kim Çen Inın dəvətini təqdim edəcək.

### YAPONİYANIN KİOTO ŞƏHƏRİNDƏ TURİSTLƏR VERGİ ÖDƏYƏCƏK



Yaponiyanın daha bir şəhərində turistlər vergi ödəmək məcburiyyətində qalacaqlar. "Trend" agentliyinin məlumatına görə, Yaponiyanın Kioto şəhərinə səfər edən turistlər mehmanxana və hostellərdə qalan səyahətçilər üçün nəzərdə tutulan xüsusi vergi ödəməli olacaqlar.

